**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

13 sentyabr 2024-cü il №33 (9091) www.muallim.edu.az muallim@media.edu.az

**2024-2025-ci tədris ilində ümumi təhsil müəssisələrinin II-XI siniflərində ilk dərs "Yaşıl dünya naminə həmrəylik" mövzusuna həsr olunacaq**




## Prezident İlham Əliyev:

## İtaliya-Azərbaycan Universiteti əməkdaşlığımızın şaxələndirilməsinin bariz nümunəsidir

Artıq Azərbaycanda İtaliya-Azərbaycan Universiteti fəaliyyət göstərir. Bu, bizim əməkdaşlığımızın şaxələndirilməsinin bariz nümunəsidir.

"Azərbaycan müəllimi" AZƏRTAC-a istinadən xəbər verir ki, bunu Prezident İlham Əliyev Beynəlxalq Çernobbio Forumunda "Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu" adlı sessiyada çıxışı zamanı deyib.

İtaliyanın beş aparıcı universitetinin Azərbaycanda olan tərəf müqabilləri ilə birgə təhsil ocağı təsis etdiklərini xatırladan dövlətimizin başçısı bildirib: "Orada təhsil almağa başlayacaq tələbələr Azərbaycan ilə İtaliya arasında təbii körpü rolunu oynayacaqlar. Onlar italyan dilini daha səlis biləcəklər. İtaliyanın tarixi irsini və mədəniyyətini də daha dərindən öyrənəcəklər".

## Cəzaçəkmə müəssisələrində peşə təhsilinin keyfiyyəti yüksəldiləcək

Prezident İlham Əliyev "Cəzaçəkmə müəssisələrində peşə təhsilinin keyfiyyətinin yüksəldilməsi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb.

Sərəncama əsasən, cəzaçəkmə müəssisələrində keyfiyyətli peşə təhsilinin həyata keçirilməsi cəzaçəkmə müəssisələrindən azadlığa buraxılmış şəxslərin sosial adaptasiyasının asanlaşdırılması, əmək bazarının ixtisaslı işçi qüvvəsinə tələbatının davamlı təmin olunması baxımından böyük önəm kəsb edir.

Bu baxımdan cəzaçəkmə müəssisələrində peşə təhsilinin müasir standartlara, əmək bazarında mövcud və gələcəkdə təklif olunacaq iş yerlərinə uyğun qurulması cəza çəkməkdən azad edilmiş şəxslərin sosial mühitə uyğunlaşdırılmasında, hüquq və azadlıqlarının, qanuni mənafelərinin qorunmasında, bu şəxslər tərəfindən törədilə biləcək yeni cinayətlərin və onlara təsir göstərə bilən kriminogen amillərin qarşısının alınmasında vacib rol oynayacaqdır.

Nazirlər Kabinetinə Ədliyyə Nazirliyinin, Elm və Təhsil Nazirliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və Maliyyə Nazirliyinin təklifləri nəzərə alınmaqla, cəzaçəkmə müəssisələrində peşə təhsilinin keyfiyyətinin yüksəldilməsinə və mövcud infrastrukturun təkmilləşdirilməsinə dair fəaliyyət planının layihəsini altı ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək tapşırılıb.

Nazirlər Kabineti, həmçinin fəaliyyət planı layihəsinin hazırlanması ilə əlaqədar aidiyyəti dövlət orqanlarının (qurumlarının) nümayəndələrindən ibarət işçi qrupun yaradılmasını, habelə layihə hazırlanarkən ixtisaslaşmış ekspertlərlə və mütəxəssislərlə səmərəli əməkdaşlığın həyata keçirilməsini, elmi təşkilatların və vətəndaş cəmiyyəti institutlarının cəlb olunmasını təmin etməlidir.

## "İKİ DÖVLƏT, BİR MİLLƏT, TƏK ÜRƏK"




Emin Əmrullayev Kahramanmaraşda Heydər Əliyev adına müasir tipli ibtidai məktəbin açılış mərasimində iştirak edib

Bax səh. 3

## QLOBALLAŞAN DÜNYADA AZƏRBAYCANIN ELMİ GÜCÜ:

## BİRLİK, TƏŞKİLATLANMA VƏ GƏLƏCƏYƏ BAXIŞ



### "Azərbaycanın elm və təhsil məkanında möhtəşəm bir günün şahidi olduq"

Bu gün Azərbaycanın elm və təhsil məkanında möhtəşəm bir günün şahidi olduq. Canı ilə, qanı ilə Azərbaycanla bağlı xaricdə yaşayan elm adamları Bakıya toplaşdı. Öz vətəninə toplaşdı və burada öz fikirlərini, Azərbaycanın gələcəyi üçün öz töhfələrini bölüşdü. Zənnimcə, gözəl bir tədbir oldu və forumun əsas məqsədi xaricdə yaşayan azərbaycanlı alimlərin təşkilatlanması, bir çətir altında toplanmasından ibarət oldu və bu baxımdan çox uğurlu bir tədbirdir. Plenar iclaslar, sessiyalarda fikir mübadiləsi, Xankəndiyə səfərimiz olacaq. Bu baxımdan çox uğurlu bir forumun ərsəyə gəldiyini düşünürəm və Qarabağ Universitetində də bizim görüşlərimiz nəzərdə tutulub.



### "Mən böyük kitabxanamı Qarabağ Universitetinə hədiyyə edəcəyəm"

Hesab edirəm ki, bu forumun ən yaddaqalan şərəfli hissəsi də bizim sonuncu gün olacaq və həmin gün biz Şuşaya səfər edəcəyik. Xankəndidə Qarabağ Universitetini ziyarət edib orada professor-müəllim heyəti ilə görüşümüz olacaq. Mən bu günü çox səbirsizliklə gözləyirəm. Çünki bu, mənim oraya ilk səfərim olacaq və azad Şuşaya ilk səfərimi mən səbirsizliklə gözləyirəm. Qarabağ Universiteti ilə bağlı müəyyən planlarımız var. Mənim də planım var və artıq bunu açıqlaya bilərəm: mən böyük kitabxanamı məhz Qarabağ Universitetinə hədiyyə edəcəyəm.

Bax səh. 7

## Ali təhsildə yeni maliyyələşmə mexanizmləri

### Dövlət keyfiyyətli kadr hazırlığı üçün daha çox vəsait xərcləyəcək



Bu günlərdə təhsil ictimaiyyətinə təqdim olunan sənəddən də göründüyü kimi, ayrı-ayrı ixtisaslar üzrə dövlət sifarişi ilə ali təhsil müəssisələrinin müvafiq təhsil səviyyələrində hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı dəyişir.

Bakalavr təhsil səviyyəsində hər təhsilalana düşən təhsil haqqı xərcləri 22, magistratura üzrə 26 faiz artırılıb. Doktorantura səviyyəsi üzrə bu artım 60 faiz təşkil edir.

Ardı səh. 8

# Xaricdə yaşayan həmvətənlərimizin sıralarında elm xadimlərinin geniş yer tutması Azərbaycan diasporunun inkişafına böyük imkanlar yaradır




## Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumunun iştirakçılarına

**Hörmətli Forum iştirakçıları!**

Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumunun ölkəmizin paytaxtında öz işinə başlaması münasibətilə sizi səmimi-qəlbdən salamlayır, hər birinizə cansağlığı və uğurlar arzulayıram. Ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğu bir zamanda Forumun təşkilinin rəmzi məna kəsb etdiyini xüsusi vurğulamaq istəyirəm.

Xaricdə yaşayan həmvətənlərimizin sıralarında elm xadimlərinin geniş yer tutması Azərbaycan diasporunun inkişafına böyük imkanlar yaradır. Diasporumuzun fəaliyyətinin sistemliliyinin təmin edilməsi məqsədilə elm sahəsində çalışan soydaşlarımızla daha sıx münasibətlər qurulması, milli maraqlarımıza xidmət göstərən müxtəlif proqram və layihələrdə onların yaxından iştirakının dəstəklənməsi istiqamətində ötən müddət ərzində təqdirəlayiq işlər görülmüşdür.

Forumun dünyanın müxtəlif ölkələrində məskunlaşmış azərbaycanlı alimlərin şəbəkələşməsi, onların elm və təhsil ocaqlarımızla əlaqələrinin dərinləşməsi, qazanılan müştərək nailiyyətlərdən yararlanmaqla ölkəmizin qlobal hədəflərə sürətlə yaxınlaşması, habelə Azərbaycan elminin dünya elm məkanına inteqrasiyası baxımından son dərəcə səmərəli olacağına əminəm.

İnanıram ki, Forum Azərbaycanda elmin dayanıqlı və innovativ inkişafı naminə ətraflı fikir mübadiləsi və dolğun müzakirələr şəraitində keçəcək, işğaldan azad edilmiş tarixi ərazilərimizin bərpası prosesinə alimlərimizin öz bilik və təcrübələri ilə töhfə verə bilmələri üçün faydalı əməkdaşlıq yollarını müəyyən edəcəkdir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 9 sentyabr 2024-cü il*

## Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumu öz işinə başlayıb












Sentyabrın 9-da Gülüstan sarayında Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumu öz işinə başlayıb.

Forum Diasporla İş üzrə Dövlət Komitəsi, Elm və Təhsil Nazirliyinin dəstəyi, Dünya Azərbaycanlı Alimlər Dərnəyinin təşkilatçılığı ilə keçirilib. 23 ölkədən 80-dən çox azərbaycanlı alimin olduğu tədbirdə ümumilikdə 200-ə yaxın elm xadimi iştirak edib.

Forumun məqsədi müxtəlif ölkələrdə yaşayan azərbaycanlı alimləri bir araya gətirmək, onları yerli alimlərlə görüşdürmək, bilik və təcrübə mübadiləsi aparılması üçün şərait yaratmaq, xaricdə yaşayan azərbaycanlı elm adamlarının şəbəkələşməsinə töhfə verməkdir.

Forumda əvvəlcə Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Azərbaycan Prezidenti İlham Əliyevin forum iştirakçılarına müraciətini səsləndirib.

Forumun açılış mərasimində iştirak edən elm və təhsil naziri Emin Əmrullayev bildirib ki, elmin inkişafı ilə bağlı yeni dövlət proqramının hazırlanması istiqamətində işlər görülür. Azərbaycan elminin inkişafı üçün prioritetlərin müəyyən edilməsinin vacibliyini vurğulayan elm və təhsil naziri deyib ki, dövlət tərəfindən təhsillə bağlı müxtəlif proqramlar həyata keçirilir. Bu proqramlar çərçivəsində təhsil alan gənclərimizin ölkəyə qayıtması və biliklərini paylaşması vacibdir.

Tədbir çərçivəsində Azərbaycandan kənarda yaşayan alimlərimizlə inteqrasiyanın vacibliyini xüsusi vurğulayan Emin Əmrullayev bildirib ki, xaricdə yaşayan alimlərimizdən gözləntilər çoxdur. Nazirin sözlərinə görə, xaricdə yaşayan azərbaycanlı alimlərin ölkəmizdə olduqları dövrdə məktəblərə gedib şagirdlərlə söhbət etmələrinin böyük faydası ola bilər. Qısamüddətli mühazirələrlə yaxşı nəticə əldə etmək olmaz, elmi əməkdaşlıq da çox mühümdür. Bundan əlavə, gənc doktorantların 1 və ya 2 illik xaricdə yaşayan azərbaycanlı alimlərin çalışdıqları laboratoriyalarda tədqiqatlara cəlb olunmalarında da fayda var.

Sonda forumun Azərbaycan elminin inteqrasiya nəticəsində inkişafına böyük töhfə verəcəyinə və elmin inkişaf etdirilməsi istiqamətində burada maraqlı müzakirələrin aparılacağına əminliyini bildirən Emin Əmrullayev tədbirin işinə uğurlar arzulayıb.

Açılış mərasimində çıxış edən Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov qeyd edib ki, xaricdə artıq yeni nəsil alimlər yetişirlər. Komitə sədrinin sözlərinə görə, xaricdə yaşayan soydaşlarımızın hər birinin uğuru birlikdən keçir. Onlardan əsas gözləntimiz isə dövlətə töhfə vermələri və təcrübələrini bölüşmələridir.

Gələn həftə xarici vətəndaşlar üçün “Azərbaycan dili” dərsliyinin çap olunacağını vurğulayan komitə sədrinin sözlərinə görə, bu dərslik həm də xaricdə Azərbaycan dilini öyrənmək istəyənlər üçün faydalı ola bilər.

ADA Universitetinin rektoru Hafiz Paşayev çıxışı zamanı bildirib ki, xaricdə yaşayan Azərbaycan alimlərinin iştirakı ilə elmimizin səviyyəsinin artırılması, yeni dövrün tələblərinə uyğun kadrların yetişdirilməsi zamanın tələbidir. Rektor bildirib ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra elm və təhsil sahəsində də yeniliklərin tətbiq olunması zərurəti yarandı. Elm çox cəlbedici bir sahədir. Azərbaycan elminin səviyyəsinin yenidən qaldırılması, peşəkar kadrların yetişdirilməsi üçün nələri etməyin lazım olduğu barədə düşünmək lazımdır. Azərbaycan elminin, təhsilinin nüfuzu daha da artırılmalıdır. Bunun üçün isə biz alimlərimizdən təkliflər gözləyirik.

Forum panel müzakirələri ilə öz işini davam etdirib.

Sentyabrın 11-dək davam edən forum çərçivəsində tədbir iştirakçıları işğaldan azad olunmuş ərazilərin bərpası prosesində alimlərimizin bilik və təcrübəsindən yararlanmaq üçün Şuşa və Xankəndi şəhərlərinə yola düşüb, Qarabağ Universitetinin müəllim heyəti ilə müzakirələr aparıblar.

**“Xaricdə yaşayan azərbaycanlı alimlərin Azərbaycanda olan dövrdə məktəblərə gedib şagirdlərlə söhbət etməsinin böyük faydası ola bilər**

**Gənc doktorantların bir və ya iki illik xaricdə yaşayan azərbaycanlı alimlərin çalışdıqları laboratoriyalarda tədqiqatlara cəlb olunmasında fayda var**

**Xaricdə yaşayan azərbaycanlı alimlərin təcrübəsi ilə yerli elm və təhsilin əlaqələndirilməsi olduqca vacibdir**

**Azərbaycan elmi ciddi bir transformasiyadan keçib. Azərbaycan elminin göstəricisi təbii ki, müasir dövrdə rəqəmlər ola bilər. Bu rəqəmlər kifayət qədər ürəkaçan deyil. Bunum obyektiv və subyektiv səbəbləri var**

**Hazırda elmin inkişafı üzrə dövlət proqramı üzərində iş aparılır. Burada əsas məqsəd həm xaricdə yaşayan azərbaycanlı alimlərin, həm də digər tədqiqatçıların təcrübəsini Azərbaycan elminə inteqrasiya etməkdir**

**Azərbaycan üçün elm və təhsil sahəsində müəyyən problemlər var. Lakin son on il ərzində bu sahədə xeyli müsbət işlər görülüb**

**Dövlət tərəfindən təhsillə bağlı müxtəlif proqramlar həyata keçirilir. Proqram çərçivəsində təhsil alan gənclərimizin ölkəyə qayıtması və öz biliklərini paylaşması vacibdir**

**Qarabağ Universiteti tezliklə mindən artıq tələbənin iştirakı ilə yeni tədris ilinə başlayacaq. Ali təhsil ocağında təhsil və elmi tədqiqatlara mütəxəssislər cəlb edilib. Onlara dəstək lazımdır”**

# “İKİ DÖVLƏT, BİR MİLLƏT, TƏK ÜRƏK”

## Emin Əmrullayev Kahramanmaraşda Heydər Əliyev adına müasir tipli ibtidai məktəbin açılış mərasimində iştirak edib

**Prezident İlham Əliyevin tapşırığı ilə Türkiyənin Kahramanmaraş şəhərində yeni inşa edilmiş Azərbaycan məhəlləsində Heydər Əliyev adına müasir tipli ibtidai məktəbin açılış mərasimi keçirilib.**

Açılış mərasimində elm və təhsil naziri Emin Əmrullayev, Türkiyənin təhsil naziri Yusuf Tekin və hər iki ölkənin nümayəndə heyəti iştirak ediblər.

Məktəbdə yaradılmış şəraitlə tanış olan qonaqlara məlumat verilib ki, təməli ötən ilin aprelində qoyulmuş üçmərtəbəli binanın tikintisi zamanı sağlamlıq imkanları məhdud uşaqlar da nəzərə alınıblar. Məktəbdə həmçinin idman zalı, kitabxana və zərurət yaranarsa, sığınacaq kimi istifadə edilə bilən yer var. İbtidai məktəbdə təhsilə dəstək məqsədilə yaradılmış əlavə otaqlar da mövcuddur. Buraya xüsusi alətlər və tədris materiallarından ibarət 1 emalatxana, musiqi dərslərinin keçirilməsi üçün musiqi alətlərindən ibarət 1 otaq, rəsm və əmək dərslərinin keçirilməsi üçün 2 emalatxana, texnologiya, riyaziyyat və mühəndislik sahələrində bacarıqların təkmilləşdirilməsi üçün 1 emalatxana, 1 kitabxana və 1 idman zalı daxildir.

Açılış mərasimində çıxış edən Emin Əmrullayev bildirib ki, Azərbaycan və Türkiyənin qardaşlığı sadəcə sözdə deyil, həm də əməldədir. Nazir həmçinin məktəbin açılması ilə bağlı bütün şəhər sakinlərini təbrik edib, müəllim və şagirdlərə uğurlar diləyib.

Xatırladaq ki, Prezident İlham Əliyevin tapşırığına əsasən, Azərbaycan 2023-cü il 6 fevral tarixində Türkiyədə baş verən dağıdıcı zəlzələdən zərər çəkmiş Kahramanmaraş vilayətində yeni məhəllənin tikintisinə dəstək verib. Keçən il sentyabrın 25-də Naxçıvan şəhərində bununla bağlı imzalanmış hökumətlərarası Əməkdaşlıq Sazişinə uyğun olaraq layihənin həyata keçirilməsi üçün ümumi dəyəri 100 milyon ABŞ dolları məbləğində vəsait Azərbaycan hökuməti tərəfindən ayrılıb.



















# Yeni məktəb, müasir infrastruktur

## Regionlarda məktəb açılışları olub

**Saatlı rayonunda Rasim Səfərov adına Qara Nuru kənd tam orta məktəbinin yeni binasının açılış mərasimi keçirilib.**

Açılış mərasimində Elm və Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini Elvin Rüstəmov, Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Elmir Bağırov, Mil — Muğan Regional Təhsil İdarəsinin müdiri Rəşad Musayev və digər qonaqlar iştirak ediblər.

Qonaqlar əvvəlcə təhsil ocağında yaradılmış şəraitlə tanış olublar.

Bildirilib ki, məktəbin yeni binası 1176 şagird yerlikdir. Üç mərtəbədən ibarət təhsil müəssisəsində 32 sinif otağı, eləcə də kitabxana, idman və iclas zalları mövcuddur. Məktəbin 1-ci mərtəbəsində direktor otağı, sinif otaqları, tibb otağı, bufet, texniki işçilər üçün otaq, 2 mühafizə otağı yerləşir. Binanın 2-ci mərtəbəsində isə müəllimlər otağı, sinif otaqları, fizika, kimya, biologiya, informatika kabinetləri, hərbi kabinet, qızlar və oğlanlar üçün texnologiya otaqları var.

***

Bərdə rayonu Nazim Hüseynov adına Alpoud kənd tam orta məktəbinin yeni binasının açılışı olub.

Açılış mərasimində Elm və Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini Fərzəli Qədirov, Təhsil İnstitutunun direktor müavini Fuad Qarayev, Qarabağ Regional Təhsil İdarəsinin müdir səlahiyyətlərini icra edən müdir müavini Anar Məcidov, sektor müdirləri və məktəb kollektivi iştirak ediblər.

Qonaqlar yeni təhsil ocağında yaradılan şəraitlə tanış olublar.

Bildirilib ki, ikimərtəbəli məktəb 264 şagird yerlikdir. Məktəbdə direktor və müavininin otağı, müəllimlər otağı, 11 sinif otağı, 1 tibb otağı, idman zalı, idman müəlliminin otağı, bufet, texniki işçilərin otağı, 2 mühafizə otağı, fizika, kimya, biologiya, informatika kabinetləri, hərbi kabinet, qızlar və oğlanlar üçün texnologiya otaqları, 84 yerlik iclas zalı, kitabxana mövcuddur.

***

Qubada Çingiz Mursalov adına Vəlvələ kənd tam orta məktəbinin yeni binasının da açılış mərasimi keçirilib. Açılış mərasimində elm və təhsil nazirinin müşaviri, Təhsil İnstitutunun direktor vəzifəsini icra edən Elnur Əliyev, Quba Rayon İcra Hakimiyyətinin başçısı İlqar Mahmudov, Quba — Xaçmaz Regional Təhsil İdarəsinin müdiri Coşqun Əliyev, müəllim və şagirdlər iştirak ediblər.

Qonaqlar yeni məktəb binasının müasir tələblərə cavab verdiyini, təhsil prosesinin daha keyfiyyətli və səmərəli təşkili üçün şərait yaradacağını qeyd ediblər.

Daha sonra məktəb binasında yaradılmış şəraitlə tanışlıq olub.

Qeyd edək ki, məktəb 264 şagird yerlikdir.

***

Ucarda Əziz Əliyev adına Qazyan kənd 2 nömrəli tam orta məktəbinin yeni binasının açılışı olub.

Açılış mərasimində Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov, Ucar Rayon İcra Hakimiyyətinin başçısı Mənsur Məmmədov, Mərkəzi Aran Regional Təhsil İdarəsinin müdiri Elçin Kərimov iştirak ediblər.

Qonaqlar yeni təhsil ocağında yaradılmış şəraitlə də tanış olublar.

Bildirilib ki, ikimərtəbəli məktəb 264 şagird yerlikdir. Məktəbin 1-ci mərtəbəsində direktor otağı, müəllimlər otağı, 5 sinif otağı, 1 tibb otağı, idman zalı, idman müəlliminin otağı, bufet, texniki işçilərin otağı, 2 mühafizə otağı yerləşir. Binanın 2-ci mərtəbəsində isə təlim-tərbiyə işləri üzrə direktor müavininin otağı, 6 sinif otağı, fizika, kimya, biologiya, informatika kabinetləri, hərbi kabinet, qızlar və oğlanlar üçün texnologiya otaqları mövcuddur. İkinci mərtəbədə həmçinin 108 yerlik iclas zalı və kitabxana var.

# Bakıda “Qlobal ali təhsil gündəliyində iqlim dəyişikliyinə qarşı mübarizə” mövzusunda beynəlxalq forum keçirilib






11-12 sentyabr tarixlərində Elm və Təhsil Nazirliyi ilə “Times Higher Education” Beynəlxalq Reytinq Agentliyi arasında əməkdaşlıq çərçivəsində “Qlobal ali təhsil gündəliyində iqlim dəyişikliyinə qarşı mübarizə” mövzusunda beynəlxalq forum keçirilib. Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin təşkilatçılığı ilə keçirilən foruma Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Sumqayıt Dövlət Universiteti ev sahibliyi edib.

Forumun məqsədi Birləşmiş Millətlər Təşkilatının (BMT) 13-cü Dayanıqlı İnkişaf Məqsədinin dəstəklənməsində ali təhsil müəssisələrinin rolunu artırmaq, iqlim böhranını həll etmək üçün ali təhsil müəssisələri və digər maraqlı tərəflərin birgə əməkdaşlığını təşviq etmək, o cümlədən elmi tədqiqatda iqlim dəyişikliyinə qarşı mübarizənin əhəmiyyəti barədə fikir mübadiləsi aparmaqdır.

Forumda açılış nitqi ilə çıxış edən elm və təhsil naziri Emin Əmrullayev ali təhsil müəssisələrimizin COP29-a hazırlıq ərəfəsində beynəlxalq foruma ev sahibliyi etməsinin və universitetlərin rəqabətqabiliyyətliliyinin artırılmasının əhəmiyyətini vurğulayıb.

Energetika nazirinin müavini, COP29-un baş icraçı direktoru Elnur Soltanov ölkəmizin enerji təhlükəsizliyi və yaşıl enerjiyə keçid dövründəki fəaliyyəti, qlobal iqlim böhranına qarşı atılmalı olan addımlar, eləcə də COP29-da iqlim dəyişikliyi ilə bağlı mövzularda elmi dairələrin aktiv iştirakının əhəmiyyətindən bəhs edib.

“Times Higher Education” Beynəlxalq Reytinq Agentliyinin qlobal məsələlər üzrə baş direktoru Fil Bati isə çıxışında son illərdə Azərbaycan ali təhsil müəssisələrinin BMT-nin Davamlı İnkişaf Məqsədlərinə uyğun strategiyaları fəal tətbiq etməklə “THE Impact” reytinqində iştirakının və uğurunun əhəmiyyətindən danışıb.




“Ölkə konteksti: postneft ölkələrində iqlim maarifləndirilməsi istiqamətində çətinliklər və imkanlar” mövzusuna həsr olunmuş panel müzakirəsində iştirak edən Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktoru Ülkər Səttarova sözügedən sahədə uğur qazanmaq üçün təhsilin ilkin pilləsindən başlayaraq maarifləndirmənin aparılması və ali təhsil müəssisələrində akademik heyət və tələbələrin bu prosesə aktiv şəkildə cəlbinin vacibliyini bildirib.

Panel müzakirələri ilə davam edən forumda COP29-un iqlim üzrə yüksək səviyyəli çempionu Nigar Arpadarai, Kembric Universitetinin iqlim təhsili üzrə direktoru Kristin Özden, Sinqapur Milli Universitetinin professoru Seeram Ramakrişna, Vorvik Universitetinin nümayəndəsi Geret Robert, “BP Azərbaycan” şirkətinin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli, ADA Universitetinin prorektoru Fariz İsmayılzadə, “British Council”un Azərbaycan üzrə ölkə direktoru Nərgiz Hacıyeva və digər rəsmi qonaqlar, universitet rəhbərləri, siyasətçilər, dövlət və qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak ediblər.

Forumda dünyanın 26 ölkəsindən 200-dən artıq nümayəndə iştirak edib.

# ORTAQ ƏLİFBA, ZAMANIN ÇAĞIRIŞI



## Emin Əmrullayev Türk Dünyası Ortaq Əlifba Komissiyasının Bakıda keçirilən üçüncü iclasında iştirak edib

Sentyabrın 9-da Bakıda Türk Dünyası Ortaq Əlifba Komissiyasının üçüncü iclası işə başlayıb.

İclas Türk Dövlətləri Təşkilatının (TDT) dəstəyi ilə Türk Akademiyasının Atatürk Mədəniyyət, Dil və Tarix Ali Şurası yanında Türk Dilçilik Cəmiyyəti ilə birgə təşkil edilib.

Tədbirdə çıxış edən Türk Akademiyasının prezidenti Şahin Mustafayev komissiyanın yaradılması prosesi barədə iştirakçılara məlumat verib, layihənin təşəbbüskarları və iştirakçılarına təşəkkür edib. Şahin Mustafayev bildirib ki, görüşün məqsədi ortaq əlifba ideyasının inkişafı istiqamətində irəliləyişləri müzakirə etmək və onun təbliği istiqamətində gələcək addımları müəyyənləşdirməkdir. Akademik türk dünyası üçün zəruri olan ortaq əlifbanın yaradılması məsələsinin bütün ziyalıların qarşısında mühüm vəzifə kimi durduğunu vurğulayıb. Onun sözlərinə görə, hazırda ortaq kök və mədəniyyətlərə bağlı olan türk xalqlarının sürətli inteqrasiyası dövründə onların ortaq əlifbaya malik olması çox vacib məsələdir.

İclasda iştirak edən elm və təhsil naziri Emin Əmrullayevin sözlərinə görə, hazırda türk dünyasının ortaq əlifbasının yaradılması bu dövlətlərin inkişafı və sıx əməkdaşlığı kontekstində atılan zəruri addımdır. Emin Əmrullayev diqqətə çatdırıb ki, ortaq türk əlifbasının yaradılması sahəsində görülən işlər zamanın çağırışıdır.

Azərbaycan Atatürk Mərkəzinin direktoru Nizami Cəfərov da öz növbəsində türk dünyası ortaq əlifbasının yaradılmasında diferensiasiyanın az olmasına, daha çox inteqrasiyaya çağırıb.

Türk Dilçilik Cəmiyyətinin prezidenti Osman Mert çıxışında qeyd edib ki, tarix bizim üzərimizə bu məsuliyyəti qoyub və biz daha qətiyyətli olmalıyıq. Hazırda türk dövlətləri arasında yaxınlaşma var, gəlin ortaq türk əlifbası yaradaq və bununla da adlarımızı tarixə yazaq.

İclas digər çıxış və müzakirələrlə davam etdirilib.

# Emin Əmrullayev ümumi təhsil müəssisələrində 2024-2025-ci tədris ilinin təşkili barədə əmr imzalayıb

## Ümumi təhsil müəssisələrinin II-XI siniflərində ilk dərs “Yaşıl dünya naminə həmrəylik” mövzusuna həsr olunacaq

Elm və təhsil naziri Emin Əmrullayev ümumi təhsil müəssisələrində 2024-2025-ci tədris ilinin təşkili barədə əmr imzalayıb.

Əmrdə bildirilir:

1. 2024-2025-ci tədris ilində ümumi təhsil müəssisələrinin II-XI siniflərində ilk dərs “Yaşıl dünya naminə həmrəylik” mövzusuna həsr olunsun.

2. Fənlərin tədrisi üzrə illik (perspektiv) plan hazırlanarkən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 avqust tarixli 371 nömrəli qərarının 1.1-ci yarımbəndi ilə müəyyən edilmiş tapşırıqlar nəzərə alınsın (payız tətilinin 2024-cü ilin 12-22 noyabr tarixlərini əhatə etməsi, təhsil proqramlarının tam mənimsənilməsi məqsədilə illik planda sadə və əlaqəli mövzuların birləşdirilməsi, bir sıra mövzuların müstəqil öyrənmə üçün ayrılması, ilboyu təkrar və ümumiləşdirilmələrə daha çox diqqətin ayrılması).

3. Naxçıvan Muxtar Repsublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi, onun yerli bölmələri aşağıda qeyd olunan əlavə tədbirlər də əhatə olunmaqla Fəaliyyət Planı təsdiq edib icrasını ciddi nəzarətdə saxlasınlar:

3.1. 2023-2024-cü tədris ilində ayrı-ayrı fənlər üzrə proqram materiallarının mənimsənilməsindəki çatışmazlıqların aradan qaldırılması məqsədilə müvafiq tədbirlərin görülməsi;

3.2. Azərbaycan dilinin dövlət dili kimi tədrisinə, ibtidai təhsil səviyyəsində tədris dili və riyaziyyat fənlərinin tədrisinə nəzarətin gücləndirilməsi;

3.3. tabeliklərindəki ümumi təhsil müəssisələrində təhsilalanların illik qiymətləndirmələrinin, buraxılış imtahanlarının, IV və VI siniflərdə monitorinqlərin, beynəlxalq qiymətləndirmə nəticələrinin, fənn olimpiadalarının və müsabiqələrinin nəticələrinin məktəb pedaqoji şuralarında ətraflı müzakirəsinin aparılması, nəticəyə uyğun qərarların qəbul edilməsi, təhsilin keyfiyyətinin yüksəldilməsinə nəzarətin gücləndirilməsi;

3.4. müvafiq təhsilalanların beynəlxalq qiymətləndirmə tədqiqatlarında (PISA, PIRLS, IELS) iştirakının təmin olunması;

3.5. ümumi təhsil müəssisələrində tərbiyə işinin gücləndirilməsi, təhsilalanların milli-mənəvi dəyərlər, azərbaycançılıq və vətənpərvərlik ruhunda tərbiyəsi sahəsində tədbirlərin davam etdirilməsi;

3.6. COP29 ilə bağlı aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə maarifləndirici görüşlərinin, müzakirələrin, “açıq dərs”lərin, seminarların, “dəyirmi masa”ların, intellektual müsabiqələrin, debatların və yarışların keçirilməsi;

3.7. təhsilalanların “COP29” və “Yaşıl dünya naminə həmrəylik ili” ilə bağlı layihələrə cəlb olunması;

3.8. təhsilalanların sağlamlığının, təhlükəsizliyinin təmin olunması, zərərli vərdişlərdən qorunması, sağlam həyat tərzinin formalaşdırılması, bilik və bacarıqlarının inkişaf etdirilməsi istiqamətində valideynlərlə sıx əməkdaşlığın təmin edilməsi;

3.9. təhsilalanların dərslərə müntəzəm davamiyyətini nəzarətdə saxlamaqla davamiyyətin qeydiyyat və hesabatlılığının vaxtında və düzgün aparılmasının təmin edilməsi;

3.10. Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən edilmiş layihələrin (STEAM, Rəqəmsal bacarıqlar və s.) icrasına, “Zəfər tarixi”, “Ortaq türk tarixi”, “Mina təhlükəsinə dair maarifləndirmə” kurslarının təşkilinə diqqətin artırılması;

3.11. müvafiq ümumi təhsil müəssisələrində inklüziv təhsilin təşkilinin diqqətdə saxlanılması;

3.12. ümumi təhsil müəssisələrində texniki təchizat və internet bağlantısı yetərli olduğu təqdirdə IV-XI siniflərdə bütün fənlər (fiziki tərbiyə, təsviri incəsənət, musiqi, çağırışaqədərki hazırlıq, texnologiya istisna olmaqla) üzrə summativ qiymətləndirmələrin rəqəmsal formada (“Virtual məktəb” platformasında) təşkil olunması;

3.13. təhsilalanların və təhsilverənlərin video.edu.az, trims.edu.az və e-derslik.edu.az portallarında yerləşdirilmiş öyrədici materiallardan istifadəsinin təşviq edilməsi;

3.14. ümumi təhsil müəssisələrində icbari təhsildən kənarda qalan, risk və həssas qruplara daxil olan təhsilalanlarla işə nəzarətin gücləndirilməsi;

3.15. təhsilverənlərin sertifikatlaşdırılması prosesinin əhəmiyyəti ilə bağlı maarifləndirici görüşlərin keçirilməsi, həmçinin yeni işə qəbul edilmiş təhsilverələrin iş yerinə adaptasiyasının diqqətdə saxlanılması;

3.16. əmrin icrası ilə bağlı görülmüş işlər barədə 2024-cü ilin dekabr və 2025-ci ilin iyun aylarında təsdiqedici sənədlər (protokollar, fotoşəkillər, cədvəllər və s.) əlavə olunmaqla hesabatların Elm və Təhsil Nazirliyinə təqdim edilməsi.

# YENİ DƏRS İLİNƏ YENİ HƏDƏFLƏRLƏ

## Bakı təhsil işçilərinin sentyabr konfransı keçirilib











## Elm və təhsil naziri Emin Əmrullayev:

### "İstəyirik ki, daha çox uşaq məktəbəqədər təhsilə, məktəbəhazırlığa getsin, bu və ya digər formada təhsilin məzmunu, müəllimlərimizin keyfiyyəti artsın"

Ötən həftə ölkənin hər yerində təhsil işçilərinin ənənəvi sentyabr konfransları keçirilib. Prosesə sentyabrın 10-da paytaxt təhsil işçiləri yekun vurub. Bu il keçirilən tədbirlər, sadəcə inzibati hissə ilə məhdudlaşmayıb, həm də müxtəlif tədris-metodiki seminarlar və öyrədici müzakirələr təşkil olunub. Seminarlarda "Oxuyub-anlama dərslərinin təşkil edilməsi", "Riyazi bacarıqların həyatda tətbiqi", "Təkmilləşdirilmiş riyaziyyat kurikulumu" kimi mövzular üzrə müzakirələr aparılıb və müəllimlərə yeni təlim metodları öyrədilib.

Məktəb rəhbərlərinin, məktəbəqədər və məktəbdənkənar təhsil müəssisələrinin rəhbərlərinin, qabaqcıl müəllimlərin iştirakı ilə keçirilən müzakirələrə elm və təhsil naziri Emin Əmrullayev, ali məktəb rektorları, millət vəkilləri, Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin (MÜTDA) rəhbərliyi, BŞTİ-nin müvafiq struktur bölmə rəhbərləri, ictimaiyyət və KİV nümayəndələri də qatılıb.

**246 bağçada sağlam qidalanma xidməti**

MÜTDA-nın direktor müavini, BŞTİ-nin müdiri vəzifəsini müvəqqəti icra edən Nərminə Hüseynova 2023-2024-cü tədris ilində idarənin fəaliyyət istiqamətləri üzrə gördüyü işlərdən danışıb. Paytaxtda məktəbəqədər və ümumi təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər və layihələri diqqətə çatdırıb. N.Hüseynovanın sözlərinə görə, ötən tədris ilində 175 bağçada monitorinq keçirilib. Bu ilin ötən dövründə 246 bağçada sağlam qidalanma xidməti təmin edilib. N.Hüseynova müqayisə edib: "Bu rəqəm keçən il üçün 101 müəssisə idi".

Ümumtəhsil müəssisələrində isə 71 araşdırma aparılıb. Monitorinqlər bu il də davam etdirilir.

**"Seçimi düzgün aparırıq"**

Konfransda çıxış edən nazir Emin Əmrullayev Elm və Təhsil Nazirliyinin mərkəzi icra hakimiyyəti orqanı olaraq işinə diqqət çəkib: "Mövcud resurslarla, mövcud imkanlar çərçivəsində elm və təhsil siyasətinin hədəflərini bacardığımız qədər ən optimal şəkildə formalaşdırmışıq. İstəyimiz çox sadədir, daha çox uşaq məktəbəqədər təhsilə, heç olmasa, bir il məktəbəhazırlığa getsin, bu və ya digər formada təhsilin məzmunu, müəllimlərimizin keyfiyyəti artsın".

Bu istiqamətdə atılan addımlar çərçivəsində sertifikatlaşdırma və müəllimlərin işə qəbulu müsabiqəsinin nəticələrinə diqqət çəkib. "Vaxtımızın çox hissəsini sərf etdiyimiz işlər doğru işlərdir", - deyən nazir sertifikatlaşdırmanın nəticələrinin müəllimlərin işə qəbulu modelinin ən doğru yol olduğuna əminlik yaratdığını vurğulayıb: "Son 10 ildə məktəblərə müəllim kimi qəbul olunan şəxslərin orta balı əvvəlki illərdə qəbul olunanlardan orta hesabla 2.5 dəfədən çox fərqlidir. Bu o deməkdir ki, seçimi düzgün aparırıq".

**"Şagirdyönümlü təhsildən danışırıq..."**

Emin Əmrullayev sentyabr konfransının müzakirə platformasında qurulmasına diqqət çəkib. "Bakı təhsili Azərbaycan təhsilinin üçdə biridir", - deyən elm və təhsil naziri paytaxt məktəblərində iş görmək, dəyişiklik etmək iqtidarında olan insanların toplaşdığı sentyabr konfransında bir neçə problemə münasibət bildirib, vacib ismarıclar verib. "Şagirdyönümlü təhsildən danışırıq, amma buna nail olmaq üçün nə edirik? Bəlkə siz məktəblərdə edirsiniz, amma bu, monitorlarda, ekranlarda görünmür", - deyib. Odur ki sentyabr konfransında problemləri, çətinlikləri müzakirə etməyə çağırıb: "Təhsilin hansı istiqamətdə irəliləyəcəyi aydındır, bu, Prezident İlham Əliyevin imzaladığı sosial inkişaf prioritetlərində açıq şəkildə elan olunub. Bizim müzakirəmiz təhsil siyasətinin əsas hədəflərindən çox Bakı məktəblərinin nə etməli olduğu üzərində qurulmalıdır".

**Məktəb-ailə əməkdaşlığına nail olmaqda məktəb rəhbərinin rolu**

Uşaqların yetişməsində məktəb-ailə əməkdaşlığına nail olmaqda məktəb rəhbərindən çox şey asılıdır. E.Əmrullayevin fikrincə, bu məsələdə direktorun davranışı, təlim prosesinə münasibəti təhsilin şəklini müəyyən edən ən vacib məqamdır: "Görünən problem odur ki, təlim prosesi bir kənarda qalıb, inzibati işlər daha prioritetdir. Müəllimə verilən saat, onların bölgüsü və s. kimi fərdi müraciətlər daha çoxdur, nəinki uşağa hansısa yaxşı müəllimin dərs keçməsi kimi tələblər".

Nazir məktəb rəhbərliyinin valideynlə ünsiyyətinə də toxunub: "Ev və məktəb mühiti bir-birilə necə əməkdaşlıq edir? Validеynlərə ismarıc necə çatdırılır ki, övladınızın daha hazırlıqlı, daha yaxşı vətəndaş olması üçün nə etməliyik?

Mən istəyərdim ki, bu cür halları müzakirə edək. Necə edə bilərik ki, bu prosesi yaxşılaşdıraq?".

E.Əmrullayev çıxışı zamanı ümumi təhsil müəssisələrində 2024-2025-ci tədris ilinin təşkili barədə müvafiq əmrdə nəzərdə tutulan məsələlərin həllinin zəruriliyini diqqətə çatdırıb.

Konfrans panel müzakirələrlə davam edib. Ötən tədris ilində aparılan təhsil islahatları, mövcud problemlər və onların həlli istiqamətində atılan addımlar, perspektivdə nəzərdə tutulan məsələlər, yeni tədris ilinin əsas hədəflərindən bəhs olunub. Panel müzakirələrdə elm və təhsil naziri Emin Əmrullayev, Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Məleykə Abbaszadə, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktoru Eşqi Bağırov, MÜTDA-nın direktor müavini, BŞTİ-nin müdiri vəzifəsini müvəqqəti icra edən Nərminə Hüseynova iştirak edib. Panel müzakirələrdə konfrans iştirakçılarının fikirləri dinlənilib, qonaqların, ekspertlərin təklif və tövsiyələrinə yer verilib, suallar cavablandırılıb.

Daha sonra Bakı şəhəri 113 nömrəli tam orta məktəbin məzunu, Qarabağ Universitetinin tələbəsi Əli Məmmədzadə çıxış edərək öz uğur hekayəsindən danışıb, qarşıya qoyduğu məqsədlərdən söz açıb.

**Ruhiyyə DAŞSALAHLI**

# YENİ DƏRS İLİNƏ YENİ HƏDƏFLƏRLƏ



## Firudin Qurbanov Naxçıvanda təhsil işçilərinin sentyabr konfransında iştirak edib



**Sentyabrın 10-da Naxçıvan Muxtar Respublikası üzrə təhsil işçilərinin sentyabr konfransı keçirilib.**

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib və önünə gül dəstələri düzüblər.

Sonra Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinə tabe məktəbdənkənar təhsil müəssisələrinin dərnək üzvlərinin əl işlərindən ibarət sərgiyə baxış keçirilib.

Konfrans Dövlət Himninin səsləndirilməsi ilə başlayıb, şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Əvvəlcə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov hesabatla çıxış edib.

Sonra şagirdləri qəbul imtahanlarında yüksək nəticə göstərmiş Babək rayonu Arazkənd ümumi orta məktəbinin müəllimi Dünya Əliyeva və Culfa şəhəri 3 nömrəli tam orta məktəbin müəllimi Vüsalə Ələkbərova çalışdıqları təhsil ocaqları üzrə qazanılmış nailiyyətlərdən danışıblar.



Konfransda çıxış edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov təhsil sahəsində həyata keçirilən islahatlar və əldə olunan nailiyyətlərdən danışıb. Nazir müavini 2003—2023-cü illərdə ölkədə təhsil infrastrukturunun təkmilləşdirilməsindən söz açıb, məktəblərdə texnoloji təminatın ilbəil daha da yaxşılaşdığını qeyd edib.

Çıxışlardan sonra Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin dərnək üzvlərinin ifasında musiqi nömrələri səsləndirilib.

Sonda isə xatirə şəkli çəkdirilib.

## Şərqi Zəngəzur və Lənkəran — Astara regional təhsil idarələri üzrə sentyabr konfransları keçirilib





**Sentyabrın 10-da Şərqi Zəngəzur və Lənkəran — Astara regional təhsil idarələri üzrə təhsil işçilərinin sentyabr konfransları keçirilib.**

Tədbirlərdən əvvəl Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Sonra şagirdlərin əl işlərindən ibarət sərgiyə, həmçinin onların idman nailiyyətlərinə baxış keçirilib.

Konfranslar Dövlət Himninin səsləndirilməsi ilə başlayıb, şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Şərqi Zəngəzur Regional Təhsil İdarəsi üzrə təhsil işçilərinin sentyabr konfransında Elm və Təhsil Nazirliyinin Məktəbəqədər və ümumi təhsil siyasəti şöbəsinin müdiri Vəfa Yaqublu, Təhsil İnstitutunun direktor müavini Fuad Qarayev, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı sədrinin müşaviri Elşad Novruzov, Şərqi Zəngəzur Regional Təhsil İdarəsinin müdiri Fuad Bədəlov, idarənin struktur bölmə rəhbərləri və əməkdaşları, regionun ümumi təhsil müəssisələrinin rəhbərləri və təhsil işçiləri iştirak ediblər.




Konfransda çıxış edən Elm və Təhsil Nazirliyinin Məktəbəqədər və ümumi təhsil siyasəti şöbəsinin müdiri Vəfa Yaqublu məktəbəqədər təhsilin əhatə dairəsinin genişləndirilməsi, ümumi təhsildə təhsilverənlərin peşəkarlığının artırılması istiqamətində ölkədə aparılan uğurlu islahatlardan danışıb. Vəfa Yaqublu çıxışının sonunda təhsil işçilərinə yeni tədris ilində uğurlar arzulayıb.

Təhsil İnstitutunun direktor müavini Fuad Qarayev 2023—2024-cü tədris ili ərzində institut tərəfindən həyata keçirilən tədbirlər barədə məlumat verib.

Sonra Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı sədrinin müşaviri Elşad Novruzov çıxış edərək təhsil işçilərinə uğurlar arzulayıb.

Daha sonra hesabatla çıxış edən Şərqi Zəngəzur Regional Təhsil İdarəsinin müdiri Fuad Bədəlov Böyük Qayıdış çərçivəsində işğaldan azad olunmuş torpaqlarda fəaliyyət göstərən ümumi və məktəbəqədər təhsil müəssisələrində yaradılmış təhsil mühitindən danışıb.

Sonda təhsil işçilərini maraqlandıran suallar cavablandırılıb.

***

Lənkəran — Astara Regional Təhsil İdarəsi üzrə təhsil işçilərinin sentyabr konfransında Elm və Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin müdiri Çapay Məmmədov, Təhsil İnstitutunun direktor müavini İlham Cavadov, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi sədrinin müavini Mirzə Cəfərzadə, Lənkəran — Astara Regional Təhsil İdarəsinin müdiri Bəhruz Mehdiyev, eləcə də region üzrə şəhər və rayon icra hakimiyyəti başçılarının müavinləri, şöbə müdirləri, aidiyyəti idarə, müəssisə rəhbərləri və təhsil işçiləri iştirak ediblər.

Konfransda çıxış edən Elm və Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin müdiri Çapay Məmmədov təhsil üzrə prioritet istiqamətlər haqqında məlumat verib, konfrans iştirakçılarına uğurlar arzulayıb.

Lənkəran — Astara Regional Təhsil İdarəsinin müdiri Bəhruz Mehdiyev 2023—2024-cü tədris ilində görülən işlər haqqında hesabat məruzəsi ilə çıxış edib.

Konfransda çıxış edən Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının müavini Ülviyyə Əliyeva yeni tədris ili münasibətilə iştirakçılara uğurlar arzulayıb.

Sonra Təhsil İnstitutunun direktor müavini İlham Cavadov çıxışı zamanı IV və VI siniflər üzrə monitorinq, IX və XI sinif buraxılış imtahanlarının nəticələrinin təhlili, olimpiada və respublika səviyyəli müsabiqə nəticələri, eləcə də növbəti tədris ilində nəzərdə tutulan layihələrlə bağlı statistik məlumatları konfrans iştirakçılarının nəzərinə çatdırıb.

Sonda çıxış edən Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi sədrinin müavini Mirzə Cəfərzadə təmsil etdiyi qurumun təhsil işçiləri üçün yaratdığı yeni imkanları diqqətə çatdırıb.

Müzakirələrlə davam edən konfransın sonunda xatirə şəkli çəkdirilib.

# QLOBALLAŞAN DÜNYADA AZƏRBAYCANIN ELMİ GÜCÜ:

# BİRLİK, TƏŞKİLATLANMA VƏ GƏLƏCƏYƏ BAXIŞ

## Xaricdə yaşayan azərbaycanlı alimlər fikirlərini "Azərbaycan müəllimi"nə bölüşüblər

### "Azərbaycanın elm və təhsil məkanında möhtəşəm bir günün şahidi olduq"



Sentyabrın 9-da Bakıda keçirilən Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumunda iştirak edən Əməkdar elm xadimi, Münhen Texniki Universitetinin professoru, Humboldt mükafatı alan ilk azərbaycanlı alim, Dünya Azərbaycanlı Alimlər Birliyinin sədri, fizika-riyaziyyat elmləri doktoru Məsud Əfəndiyev Forumla bağlı fikirlərini "Azərbaycan müəllimi" ilə bölüşüb:

"Mən 33 ilə yaxındır ki, Almaniyada yaşayıram, professor qismində çalışıram. Bu gün Azərbaycanın elm və təhsil məkanında möhtəşəm bir günün şahidi olduq. Canı ilə, qanı ilə Azərbaycanla bağlı xaricdə yaşayan elm adamları Bakıya toplaşdı. Öz vətəninə toplaşdı və burada öz fikirlərini, Azərbaycanın gələcəyi üçün öz töhfələrini bölüşdü. Zənnimcə, gözəl bir tədbir oldu və forumun əsas məqsədi xaricdə yaşayan azərbaycanlı alimlərin təşkilatlamasına, bir çətir altında toplanmasından ibarət oldu və bu baxımdan çox uğurlu bir tədbirdir. Azərbaycan alimləri, rektorları burada çıxış etdi və ən mühüm məqamlardan biri də odur ki, bu forum üç gün ərzində davam edəcəkdir. Plenar iclaslar, sessiyalarda fikir mübadiləsi, Xankəndiyə səfərimiz olacaq. Bu baxımdan çox uğurlu bir forumun ərsəyə gəldiyini düşünürəm və Qarabağ Universitetində də bizim görüşlərimiz nəzərdə tutulub.

Hamımızın, Azərbaycanın gələcəyi naminə elm adamlarının bir yerdə olması hamı üçün qürurvericidir. Bundan 15-20 il əvvəl belə bir münbit zəminin olması qeyri-mümkün idi. İndi Azərbaycanın dörd yanında bayrağımız dalğalanır və elm adamları istər xaricdə, istər daxildə bu bayrağın daha da yüksəkdən dalğalanması üçün əlindən gələni əsirgəmədilər. Biz xaricdə yaşayan alimlər buna hazırıq".

### "Ərazilərimiz azad olunub, indi gələcəyə baxmaq lazımdır"

**Kembric Universitetinin Molekulyar Biologiya Laboratoriyasının qrup rəhbəri, AMEA Molekulyar Biologiya İnstitutunun laboratoriya rəhbəri professor Qərib Mürşüdov da "Azərbaycan müəllimi"nə tədbirlə bağlı, eləcə də Azərbaycanda elm və təhsilin inkişafı haqda fikirlərini bölüşüb:**



"Mən uzun müddətdir çox istərdim ki, Azərbaycanda elm inkişaf etsin. Ümumiyyətlə, belə deyək, hər hansı ölkənin gücü, hazırda orada olan təhsil, elm sənayedən, elmdən asılıdır. Əgər inkişaf etmiş ölkələrə baxsanız, onların hamısında resurslara yox, əsasən elmə, təhsilə çox diqqət verilir. Çünki müasir sənaye, elm və texnologiyaya əsaslanır. Əgər sizdə elm, texnologiya varsa, onda sizin gücünüz var. Bu isə o deməkdir ki, siz o biri ölkələrdən də asılı deyilsiz, hətta siz o biri ölkələri özünüzdən asılı edə bilərsiniz.

Bunun hamısının əsasında elm və texnologiya durur. Azərbaycanda hazırda bu zəif səviyyədədir, bunu həll eləmək lazımdır. Həll etmək üçün bizim kimi adamlar buna kömək eləməyə hazırdırlar. Bunu etmək üçün hər hansı bir mexanizm lazımdır. Hazırda bu mexanizm yoxdur. Mən özüm 15 ildir bununla məşğul oluram. Amma mexanizm olmadığına görə gərək özün öz təşəbbüsünlə çox işlər görəsən. Amma bu Forum mən ümid edirəm ki, bu təşəbbüsü olan, kömək eləmək istəyən insanlara bir mexanizm yaradacaq. Ancaq yenə də kənardan gələnlər kifayət eləmir. Kənardan nə qədər olsa, nə qədər ürəyi yanan olsa, ölkədə əgər mexanizm, resurslar yoxdursa, onda bunu həll etmək olmaz. Buna görə biz Azərbaycanda həm təhsili, həm elmi möhkəmləndirməliyik, tamamilə dəyişməliyik. Yeni sistemlərə keçməliyik.

Dünyada hazırda digital qəlb deyilən bir şey var. Buna rəqəmsal uçurum deyirlər. İnformasiya həddən artıq çoxdur, ancaq bu informasiya bir neçə dildə mövcuddur. Bunu həll eləmək mümkündür. Bunu həll eləmək üçün süni zəkadan istifadə etmək lazımdır. Bu haqda ideyalar var. Bu kimi ideyaları Azərbaycanda tətbiq etmək üçün bir mexanizm yaradılsa, mən iştirak etməyə məmnun olardım. Mən bilən çox adamlar var. Əlbəttə, biz bilirik ki, çoxlu problem, boşluqlar var. Bu boşluqların obyektiv, subyektiv səbəbləri də var. Onları kənara qoymaq lazımdır.

Fikirləşmək lazımdır ki, biz gələcəkdə nə istəyirik. Necə edək ki, uşaqlar böyüyəndə həm ölkədə, həm də kənarda uğurlara malik olsun. Ölkədə uğurlara malik olmaq üçün həm iqtisadi islahatlar, eyni zamanda elm lazımdır. Təhsil ölkənin gələcəyidir. Elm o deməkdir ki, siz mühit yaradırsınız, mühit yaradırsınızsa, deməli, bu mühitin ətrafında yeni texnologiyaya əsaslanan sənaye inkişaf edir. Əgər dünyaya məsələn, Silikon vadisinə və ya Kembricə baxın, onun ətrafında sənayelər meydana çıxır. Sənayelərin hamısı da orada güclü elmin və təhsilin olmasına görədir. Biz bu misallardan istifadə edib Azərbaycanı inkişaf etdirməliyik. Mümkündür, əlbəttə.

Mən Azərbaycana gələndə məktəblərə gedirəm. Məktəb vaxtı olanda, mənim fikrimcə, məktəblərdə rol modellər yaratmaq lazımdır ki, uşaqlar baxsınlar, gələcəkdə nə edə bilərlər. Çox insanlarla danışanda onlarda özləri haqda, öz ölkəsi haqqında fikirlər var. Bunu da başa düşmək olar. Nəyə görə? Çünki özləri güclərini bilmirlər, onlar bilmirlər hara gedə bilərlər. Bu rol modelləri mənfi fikirləri dəyişə bilər. Biz bunun üzərində işləməliyik.

Mən iki dəfə Elm və Təhsil Nazirliyinin dəstəyi ilə Qarabağda olmuşam, bir dəfə Şuşada, bir dəfə də Xankəndidə. Ora gedəndə hər dəfə mənim ürəyim açılır. Artıq ölkəmizin ən böyük problemi həll ounub, ərazilərimiz azad olunub. İndi gələcəyə baxmaq lazımdır. Gələcəyə isə indidən başlamaq lazımdır. Bu Forum bu mexanizmi yaratmaqda rol oynaya bilər".

### "Mən böyük kitabxanamı Qarabağ Universitetinə hədiyyə edəcəyəm"

**Bunu Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumunda "Azərbaycan müəllimi"nə açıqlamasında Kanadanın Vaterloo Universitetinin riyaziyyat fakültəsinin riyaziyyat və biznes üzrə proqramlar direktoru, professor İlham Axundov deyib.**



O bildirib ki, dünyanın bir çox ölkələrindən azərbaycanlı alimlərin bu forumda bir araya gəlməsi çox böyük hadisədir.

"Bu forumun proqramından da göründüyü kimi, bizim çox gərgin iş qrafikimiz olacaq. Ümumiyyətlə, bu gün burada qeyd olundu ki, elmin vətəni yoxdur, ancaq alimin vətəni var. Bu, bizim birinci şüarımız oldu. Əlbəttə, biz hamımız azərbaycanlılar olaraq buraya yığışmışıq və bizim əsas məqsədimiz də Azərbaycan elminə, təhsilinə öz töhfələrimizi verməkdir. Mən elə düşünürəm ki, bizim bu forumda bütün işimiz məhz o töhfənin hansı şəkildə verilməsi və nə cür verilməsindın gedəcək. Məmnun gördüyüm odur ki, bizim geniş mövzular üzrə müzakirələrimiz olacaq. Özümüzə müəyyən bir hədəf seçməliyik ki, biz gələcəkdə nələri etməliyik".

İlham Axundov qeyd edib ki, bu forumun ən böyük əhəmiyyəti həm də ondadır ki, azərbaycanlı alimlər arasında müəyyən bir şəbəkələşmə yaradır:

"Biz bu gün bir yerdə olmuşuq. Çoxları bir-birini tanıyırdı, ancaq ünsiyyət qurmamışdılar. Bu ünsiyyət bu gün burada yarandı. Dünyanın bütün alimləri eyni dildə danışırlar. Riyaziyyatçılar bir dildə danışır. Mən bu gün burada hiss edirəm ki, biz nələri edə bilərik. İlk gün artıq onu göstərir ki, bizim potensialımız çoxdur və əsas məqsəd də odur ki, bu potensialı düzgün istiqamətə gətirək. Və onu daha da məhsuldar şəkildə Azərbaycanın təhsilinin, elminin inkişafına sərf edək. Hesab edirəm ki, bu forumun ən yaddaqalan şərəfli hissəsi də bizim sonuncu gün olacaq və həmin gün biz Şuşaya səfər edəcəyik. Xankəndidə Qarabağ Universitetini ziyarət edib orada professor-müəllim heyəti ilə görüşümüz olacaq. Mən bu günü çox səbirsizliklə gözləyirəm. Çünki bu, mənim oraya ilk səfərim olacaq və azad Şuşaya ilk səfərimi mən səbirsizliklə gözləyirəm. Qarabağ Universiteti ilə bağlı müəyyən planlarımız var. Mənim də planım var və artıq bunu açıqlaya bilərəm: mən böyük kitabxanamı məhz Qarabağ Universitetinə hədiyyə edəcəyəm".

### "Gərək Azərbaycanda da süni intellekt metodlarına fikir verək"



Son 20 ildir ki, Berklidə (ABŞ) yerləşən Birləşmiş Genom İnstitutunda çalışan professor Asəf Salamov bioinformatika sahəsində dünyanın elmi məqalələrinə ən çox istinad olunan alimlərindən biridir.

Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumunda iştirak edən A.Salamov sentyabrın 11-də keçirilən panel sessiyadakı çıxışında öz tədqiqatları və onların Azərbaycan üçün maraqlı tətbiq sahələrindən danışıb.

Alim hazırda əsas tədqiqatlarının DNT zülal ardıcıllığının kompüter metodları ilə analizi ilə bağlı olduğunu deyib.

Son illər yeni texnologiyaların yarandığını bildirən alim bu texnologiyaların hüceyrə daxilində baş verən prosesləri öyrənməyə imkan verdiyini vurğulayıb. Çalışdığı Berkli laboratoriyasının ABŞ-nin Energetika Nazirliyi tərəfindən maliyyələşdirildiyini qeyd edən alim əlavə edib edib ki, burada iqlim dəyişikliyinin, energetika, genomların analizi aparılır.

Azərbaycana gəldikdə, konkret olaraq isə bioinformatikanın ölkəmizdə necə inkişaf edə bilər məsələsinə toxunan alim qeyd edib ki, biz genomun sekvensiyasını ayrı-ayrı ölkələrə göndərə bilərik: "Əsas məsələ növlərdən DNT-ni çıxarmaqdır. Sonra Azərbaycanda olan növlərin analizi daha faydalı ola bilər. Məsələn, kənd təsərrüfatında xeyirli olan bitkilərin genetik analizi məhsuldar bitki növlərinin yetişdirilməsinə imkan verə bilər. Bununla da iqlim dəyişkənliyinə davamlı bitkilərin yetişdirilməsinə nail olmaq olar".

Bundan əlavə alim hesab edir ki, Azərbaycanın zəngin fauna və florası var. Onların unikallığının qorunmalarına kömək edə bilər. Tibb sahəsinə gəldikdə alim qeyd edir ki, Amerikada bu barədə çox danışılır: "Tibb genetikləri (genetik məsləhətçilər) bir çox xəstəliklərlə əlaqəli genlərlə bağlı ətraflı məsləhət verə bilərlər. Yeni evlənən gənclərə məsləhət verə bilərlər ki, sizdə hansı genlər var, onların kombinasiyası gələcəkdə hansı xəstəliklərə gətirib çıxara bilər. Bu sahədə Azərbaycanda da işlər aparılsa, çox xeyirli ola bilər".

Metodlara gəldikdə, alim hesab edir ki, ənənəvi olaraq bioinformatika klassik metodlara əsaslanır. Kompüter elmlərindən maşın öyrənmə, statistik analiz, süni intellekt indi daha çox aktual olub. Bioinformatikada artıq onlardan daha geniş istifadə edilir: "Məsələn, hazırda böyük elmi tədbirlərdə süni intellekt, maşın öyrənmə metodlarından, onların cürbəcür tətbiqindən çox danışılır. Bu, indi bir dəb halını alıb, trendə çevrilib. İki ay əvvəl iştirak etdiyim genom konfransının böyük bir hissəsi zülalların funksiyasının proqnozlaşdırılmasına həsr olunmuşdu. Bu da genomların annotasiyasında çox vacibdir. Bütün dünyada 2 min laboratoriyanın iştirakı ilə müsabiqə keçirilib, I və II yerləri Çin və Rusiya laboratoriyaları tutub".

A.Salamov qeyd edir ki, buna baxmayaraq bu metodlar hələ o qədər də dəqiq deyil və onların bioinfomatikada o qədər təcrübələri yox idi:

"Onlar sırf süni intellekt laboratoriyalarıdır, ancaq müsabiqədə I və II yeri tutdular. ABŞ-nin Energetika Departamentindən Berkli laboratoriyasına gələn təşəbbüs əsasında laboratoriyada süni intellekt, fizika, kimya, yumşaq bacarıqlar və s. geniş tətbiq olunur. Maraqlısı odur ki, adətən bu təşəbbüs alimlərdən gəlir, ancaq indi yuxarıdan, Energetika Departamentindən gəldi. Onlar alimləri dəvət edirlər ki, süni intellekt metodları üzərində işləsinlər".

Alim qeyd edir ki, indi bu sahəyə milyardlarla dollar vəsait axır: "Maraqlısı odur ki, indi ayrı-ayrı sahələrdə maliyyənin azalması gözlənilir, amma süni intellekt və maşın öyrənmə metodlarına daha çox fikir verirlər. Ona görə də mənə elə gəlir ki, gərək gələcəkdə Azərbaycanda da süni intellekt metodlarına çox fikir verək. Bu çox perspektivli istiqamətdir. Ənənəvi olaraq həm Azərbaycanda, həm də xaricdə riyaziyyatçılar, fiziklər çox güclü olub".

A.Salamova görə süni intellektin riyazi əsası o qədər də rəvan deyil. Bu xətti cəbr, fizika, proqramlaşdırma tələb edir. Stenford Universitetində, Massaçusets Texnologiya İnstitutunda yaxşı proqramlar var. Onları da öyrənmək olar: "İndi bizə gənc tələbələr gəlir. Onlar əsasən iki istiqamətdə - genomun redaktəsi və süni intellektə maraq göstərirlər. Onların çoxu gəncdir. Bunun Azərbaycan üçün də xeyri ola bilər. Sıfırdan dil modellərini öyrənmək çox çətindir. Bundan ötrü çox güclü kompüterlər lazımdır. "Google" kimi iri şirkətlərdə o modellərin tətbiqi nisbətən zəif olub. Bunu Azərbaycan necə tətbiq edə bilər, bunu bilmirəm. Ancaq məncə, bu, bütün dünyada ən böyük problemlərdən biridir. Süni intellekti mən biologiyada, fizikada, kimyada, ictimai elmlərdə görürəm. Aparıcı elmi jurnallara baxsaq, bu mövzuda hər həftə maraqlı məqalələr görə bilərik.

Qeyd edək ki, ABŞ-nin Birləşmiş Genom İnstitutunun aparıcı elmi işçisi, Genetik Ehtiyatlar İnstitutunun (GEİ) Beynəlxalq kompüter genomikası laboratoriyasının müdiri, professor Asəf Salamov dünyanın tanınmış alimlərindən biridir. Onun elmi məqalələrinə 56000-dən çox istinad edilib və hirş indeksi 86-dır. Alimin çoxlu sayda məqaləsi dünyanın nüfuzlu, yüksək impakt faktorlu jurnallarında, o cümlədən tanınmış "Nature" və "Science" jurnallarında dərc olunub. O, həmçinin "İnsan genomu" üzrə beynəlxalq layihənin iştirakçısı olan yeganə azərbaycanlı alimdir.

### "Bizim COP29 konfransına böyük dəstək olmaq potensialımız var"



Kanadanın York Universitetinin professoru Yulduz Rəhimov "Gülüstan "sarayında keçirilən Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumunun ikinci günündə "Ətraf mühit nümunələrinin proqnozlaşdırılmasında və insan müdaxilələrinin təsirinin qiymətləndirilməsində riyazi modellərin rolu" mövzusunda çıxış edib.

Son 26 ildə York Universitetində çalışan alim böyük qürur hissi ilə forumda iştirak etdiyini bildirib. Bu müddət ərzində minlərlə tələbəyə dərs dediyini deyən professor iqlim dəyişmələrindən danışarkən bu məsələdə riyazi modelləşdirmənin vacibliyini qeyd edib.

Öz çıxışında Yulduz Rəhimov Azərbaycanın bu il keçiriləcək COP29 konfransına ev sahibliyi etməsindən danışıb. Qeyd edib ki, bizim bu konfransın işinə böyük dəstək olmaq potensialımız var. Onun sözlərinə görə, "Prezident İlham Əliyev 2024-cü il martın 2-də Cənub Qaz Dəhlizi Məşvərət Şurası nazirlərinin 10-cu iclası və Yaşıl Enerji Məşvərət Şurası nazirlərinin 2-ci iclası zamanı "Euronews" telekanalına müsahibəsində demişdir: "COP29 bizim ortaq yaşıl gündəmimizin və məsuliyyət hissimizin bir hissəsidir, çünki qalıq yanacaqlarla zəngin bir ölkə yaşıl enerjiyə keçid prosesində olan ölkələr arasında ön sıralarda olmalıdır".

Y.Rəhimov ümid etdiyini bildirib ki, DAAB bütün dünyada və xüsusilə Azərbaycan Respublikasında ekoloji tarazlığın qorunması ilə məşğul olan bütün təşkilat və qurumların səylərinin vahid akademik platforma ətrafında birləşməsində layiqli rol oynayacaq. Əldə edilmiş elmi-tədqiqat nəticələrinin Azərbaycanda tətbiqinin təşkil edilməsinə və respublikamızda "yaşıl sənaye"nin inkişafına mühüm töhfələr verəcək.

**Oruc MUSTAFAYEV**

# ALİ TƏHSİLDƏ YENİ MALİYYƏLƏŞMƏ MEXANİZMLƏRİ

## Dövlət keyfiyyətli kadr hazırlığı üçün daha çox vəsait xərcləyəcək

**Məlum olduğu kimi, Nazirlər Kabineti tərəfindən ayrı-ayrı ixtisaslar üzrə dövlət sifarişi ilə ali təhsil müəssisələrinin bakalavriat və əsas (baza ali) tibb təhsili, magistratura və rezidentura, eləcə də doktorantura (dissertantlıq istisna olmaqla) səviyyəsində hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı yeni redaksiyada təsdiqlənib.**

Bu günlərdə təhsil ictimaiyyətinə təqdim olunan sənəddən də göründüyü kimi, ayrı-ayrı ixtisaslar üzrə dövlət sifarişi ilə ali təhsil müəssisələrinin müvafiq təhsil səviyyələrində hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı dəyişir.

Bakalavr təhsil səviyyəsində hər təhsilalana düşən təhsil haqqı xərcləri 22, magistratura üzrə 26 faiz artırılıb. Doktorantura səviyyəsi üzrə bu artım 60 faiz təşkil edir.

Qeyd edilməlidir ki, təhsilin ayı-ayrı



səviyyələri üzrə bir təhsilalana düşən illik xərclərin miqdarı ilə bağlı danışarkən, ilk növbədə, yeniliyin heç də təhsil haqlarının artması və ya bunun üçün əsasın yaradılması ilə bağlı olmadığını qeyd etmək lazımdır. Söhbət ondan gedir ki, bu yenilik son illərin qlobal ali təhsil mənzərəsində baş verən sürətli dəyişikliklər — yeni, müasir ixtisasların yaradılması, yeni təcrübi və innovativ tədris metod və vasitələrin daim modernləşməyə can atan ali təhsil sisteminə sürətli transformasiyası ilə bağlıdır. Bu sürətli transformasiya da təbii ki, bu sahədə mövcud olan qanunvericilik sənədlərində, qərarlarda çevik dəyişiklik tələb edir. Bu baxımdan, dövlət ali təhsil müəssisələrində təhsilin ayrı-ayrı səviyyələri üzrə bir təhsilalana düşən xərclərin miqdarı ilə bağlı siyasətə yenidən baxmalı idi. Bu proses hazırda dünyanın müxtəlif ali təhsil sistemlərində baş verir və hökumətlərin dəyişikliklərə çevik reaksiyası ilə müşahidə olunur.

İlk növbədə, bu dəyişikliklər və onları əsaslandıran şərtlər cəmiyyət üçün şəffaf şəkildə baş verir. Dövlətin bu sahədə hər hansı dəyişikliyi şərtləndirən qərarları ciddi tədqiqatlara, müzakirələrə və mütəxəssis rəylərinə əsaslanır.

Bütün bu dəyişikliklər əslində artıq bir neçə ildir ki, dünyanın beyin mərkəzləri (Ümumdünya İqtisadi Forumu, Dünya Bankı, OECD və s.) tərəfindən işlənib hazırlanmış hesabatlarda da yer almış yeni ixtisasların gələcəyi və ali təhsildə yeni maliyyələşmə mexanizmlərinin qaçınılmazlığı ilə bağlı müddəalarda da öz əksini tapır.

Söhbət ondan gedir ki, sürətli dəyişikliklər dövründə ixtisasların yenilənməsi ilə yanaşı, maliyyə resurslarının da yenidən gözdən keçirilməsi baş verir və bu iki proses yanaşı gedir.

İndiki halda isə ali təhsil sahəsində hər bir təhsilalana düşən illik təhsil xərclərindəki artım (dövlətin xərcləri anlamında) mövcud reallıqların nəzərə alınması zərurətindən irəli gəlir.

Bir xüsusi məqamı da vurğulamağa dəyər. XXI əsr ali təhsili müasir səriştə və bacarıqlara sahib mütəxəssislərin hazırlanmasına yönəlib. XXI əsr məzunu əmək bazarına hansı hazırlıq səviyyəsində daxil olur? Burada, artıq, söhbət ali təhsil sisteminin məzunlarının əmək bazarına hansı keyfiyyətdə hazırlanmasından gedir. Yüksək biliyə malik, səriştəli, bacarıqlı məzun isə yüksək texnologiyalı, müasir infrastrukturla təchiz edilmiş, müasir kitabxana, əlavə və köməkçi tədris laboratoriya və kabinetlərdə təhsillənməklə əmək bazarı üçün cəlbedici olur. Bu isə təbii ki, özünü bəzi təhsil səviyyələri və ixtisas sahələri üzrə dövlət büdcə xərclərinin artırılmasını labüd edir.

Ümumiyyətlə, ali təhsil səviyyələri üzrə fərqli artım templəri də başadüşüləndir. Çünki bəzi sahələr üzrə xərclər bir çox amillərdən, ilk növbədə isə hazırlıq istiqamətindən asılıdır. Dövlət xərclərinin formalaşması standartları bütün ixtisasları üç qrupa ayırır:

* Birinci qrupa təlimin xüsusi avadanlıq tələb olunmadığı sahələr daxildir. Bunlar iqtisadiyyat, statistika, pedaqogika, psixologiya, tarix, fəlsəfə, hüquq və s.

* İkinci qrupa mühəndislər, memarlar, kimyaçılar və İT mütəxəssisləri hazırlayan proqramlar daxildir. Belə mütəxəssislərin hazırlanması xərcləri birinci qrupdan daha yüksəkdir.

* Üçüncü qrupa təlimin mürəkkəb avadanlıq tələb etdiyi sahələr daxildir: nüvə fizikası və energetikası, aviasiya və raket mühəndisliyi, klinik tibb, genetika, həmçinin idmançıların, mədəniyyət və incəsənət xadimlərinin hazırlanması proqramları. Belə mütəxəssislərin hazırlanması ən bahalıdır.

Bu gün ömrünü başa vurmaqda olan bəzi ixtisas və peşə sahələrinin yeniləri ilə əvəz olunması, eləcə də ənənəvi ixtisas sahələrinin güclü modernləşmə, təkmilləşməsi, maliyyə resurslarından balanslı və optimal istifadə olunması mərhələsindən keçir ki, bu da hökuməti bu sahədə ciddi və adekvat tədbirlər görməyə, yeni çağırışlar nəzərə alınmaqla öz siyasətini yenidən gözdən keçirməyə vadar edir.

Çünki keyfiyyətli məzun hazırlığı hər bir təhsilalana düşən təhsil xərclərinin artım tempi ilə korrelyasiya təşkil edir və bu artım ali təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

**Oruc MUSTAFAYEV**

# Keyfiyyətli müəllim uğurlu təhsilin əsasıdır

**Müəllimliyin qüdrətini insanlar hələ qədim dövrlərdə kəşf ediblər. Hər adam müəllimlik etməyib, yalnız cəmiyyətdə seçilən insanlar bu ağır missiyanı öz üzərlərinə götürüblər. Elə onların adı ilə də məktəblər yaranıb: - Pifaqorun məktəbi, Sokratın məktəbi, Tusinin məktəbi, İbn Sinanın məktəbi və s. Belə təhsil ocaqlarının sayı o qədər də çox olmayıb, əvəzində bu məktəblərdə dövrün nəhəng mütəfəkkirləri, sərkərdələri, şairləri, bir sözlə, cəmiyyət həyatına nəzərəçarpacaq dərəcədə təsir edə biləcək insanlar yetişiblər. Təhsilin yaddaşı belə məktəblərlə və onların fəaliyyəti ilə zəngindir.**



**Hikmət ƏLİZADƏ**
**Elm və Təhsil Nazirliyi yanında**
**İctimai Şuranın Sədri, BDU-nun professoru**

Orta əsrlərdə cəmiyyətin inkişafı axarında yeni-yeni məktəblər yaranıb. Həmin məktəblərdə dərs deyən müəllimlər də cəmiyyətdə inkişaf səviyyələri ilə fərqlənən insanlar olublar. Onların yetirmələri xalqın əqli, mənəvi və mədəni inkişafı uğrunda mübarizə aparıblar. Yeni dövrdə sənayenin inkişafı ilə bağlı olaraq məktəblərin sayı böyük sürətlə artmağa başlayıb. Bu zaman müəllim kadrlarına ehtiyac artıb, onların pedaqoji fəaliyyəti hər bir ölkənin taleyüklü strateji pedaqoji məsələlərindən biri kimi dəyərləndirilməyə başlanıb. Cəmiyyət həyatında müəllimin rolunun mahiyyəti dərk ediləndə orta ixtisas və ali pedaqoji təhsil ocaqları yaradıldı və müəllim kadrlarının hazırlanması bu müəssisələrdə həyata keçirilməyə başlandı.

***Haşiyə:*** Əgər əvvəllər özündə müəllimlik qüdrəti hiss edən nəhəng insanlar müəllimlik fəaliyyəti ilə məşğul olurdusa, XX əsrdə pedaqoji təhsil alan insanlara müəllimlik fəaliyyəti ilə məşğul olmaq hüququ verildi.

Beləliklə, müəllim kadrlarının hazırlanması pedaqoji təhsil müəssisələrində həyata keçirilməyə başlandı. Zaman kontekstində pedaqoji təhsil müəssisələrində hazırlanan müəllim kadrlarının pedaqoji səriştələrinin, bilik və bacarıqlarının eyni səviyyədə olmadığı üzə çıxdı. Bunun nəticəsi olaraq, məktəblərdə pedaqoji fəaliyyətlərində uğur qazanan və uğur qazanmayan müəllimlər yarandı, onları metodist müəllim, qabaqcıl müəllim, adi müəllim və s. kimi mənalandırdılar. Bu, əslində müəllimlərin keyfiyyət ölçüləri ilə səciyyələndirilməsi deməkdir.

Məktəbdə isə yalnız pedaqoji bacarıqları ilə fərqlənən müəllimlər fəaliyyət göstərməlidir. Bu pedaqoji aksiomadır. Məsələnin belə qoyuluşu müəllim kadrlarının hazırlanması ilə yanaşı onların seçilməsi, yerləşdirilməsi məsələsinin aktuallaşmasını şərtləndirdi. Bu, yüksək səviyyəli müəllim kadrlarının müəyyən edilməsi və pedaqoji prosesə cəlb olunması üçün zəruri aktdır.

Sovetlər dönəmində ali təhsil müəssisəsini bitirən hər bir tələbə Yekun Dövlət İmtahanı verirdi. Bu imtahanın əsas məqsədi tələbələrin təhsil aldıqları müddətdə əldə etdikləri bilik və bacarıqlarının səviyyəsini müəyyən etmək idi. İmtahanda uğur qazanan tələbə təyinatla ixtisasına uyğun olaraq hər hansı bir məktəbə müəllim kimi işləməyə göndərilirdi. Yekun Dövlət İmtahanının ali məktəb tərəfindən təşkil edilməsi düzgün deyildi. Belə ki, bu zaman kadrı hazırlayan təhsil müəssisəsi əslində özü öz fəaliyyətini qiymətləndirmiş olurdu. Məntiqə əsaslansaq, bu imtahanın keçirilməsi işə götürən müəssisənin vəzifəsi olmalıdır. Sözün düzü, sovetlər dönəmində tətbiq edilən bu model müəllim kadrlarının keyfiyyət ölçülərinə mənfi təsir etmişdi.

İnkişaf etmiş dünya ölkələrində isə artıq uzun müddətdir ki, kadr seçimi işə götürənlər tərəfindən həyata keçirilir. Bunun üçün əvvəlcə müsabiqə elan edilir, sonra müsabiqədə iştirak etmək üçün sənəd verən kadrların onların tələblərinə uyğun olub-olmamasını müəyyən etmək üçün imtahan və müsahibə təşkil edilir. Müxtəlif ölkələrdə bu təcrübə əsasında özünəməxsus modellər yaranıb. İnkişaf etmiş ölkələr bu yolla məktəbin qüdrətini artıra biliblər.

Dünya təcrübəsi əsasında ölkəmizdə də təhsil islahatları müstəvisində həyata keçirilən yeniliklərdən biri müəllimlərin işə qəbulu üzrə yeni modelin tətbiq edilməsidir. Yeni modelə müvafiq olaraq dövlət ümumi təhsil müəssisələrində müəllimlərin işə qəbulu mərkəzləşdirilmiş qaydada elektron formada təşkil edilir. Ümumi təhsil müəssisələrinə müəllimlərin işə qəbulu Elm və Təhsil Nazirliyinin kollegiyasının qərarı ilə təsdiq edilmiş "Müəllimlərin işə qəbulu və yerdəyişməsi Qaydaları"na əsasən həyata keçirilir. Bunun üçün müsabiqə elan olunur. Müsabiqə 4 mərhələdən ibarətdir.

**I mərhələ:** Elektron ərizədəki göstəricilərin qiymətləndirilməsi - bu mərhələdə müsabiqədə iştirak etmək üçün sənəd verən mütəxəssisin ali təhsil və orta ixtisas müəssisələrini pedaqoji ixtisaslar üzrə bitirməsi, dövlət nümunəli diplom alması və xarici ölkədə aldığı ali təhsil haqqında sənədin tanınması və s. bu kimi məsələlər aydınlaşdırılır;

**II mərhələ:** Test imtahanının keçirilməsi - Müsabiqədə iştirak edən şəxslərə 40 ixtisas, 20 kurikulum olmaqla, 60 test tapşırığı təqdim olunur. Bu testlərə cavab vermək üçün onlara 90 dəqiqə vaxt ayrılır;

**III mərhələ:** Vakant yerlərin seçilməsi - Test imtahanında uğur əldə edən namizədlərə 8 vakant yeri seçmək imkanı verilir;

**IV mərhələ:** Müsahibə - Bu mərhələdə namizədlərin peşəkar kompetensiyaları, psixoloji hazırlığı və ümumi dünyagörüşü müvafiq komissiya tərəfindən müəyyənləşdirilir.

Göründüyü kimi, ölkəmizdə müəllimlərin işə qəbulu (MİQ) ilə bağlı pedaqoji cəhətdən maraq kəsb edən model yaradılmışdır. Bu modelin yaradılmasında əsas məqsəd yüksək keyfiyyət göstəricilərinə malik olan müəllimləri müəyyən edərək, onları pedaqoji prosesə cəlb etməkdən ibarətdir. Cari ildə MİQ imtahanlarının keçirilməsi üçün ölkəmizin 18 müxtəlif şəhər və rayonu üzrə 39 imtahan mərkəzi yaradılmış və 2-10 iyul tarixlərində 50264 nəfər imtahanda iştirak etmişdir. İmtahanlar ümumi təhsil müəssisələrində tədris olunan Azərbaycan dili və ədəbiyyat, Azərbaycan dili, texnologiya, təsviri incəsənət, ibtidai sinif, musiqi, riyaziyyat, kimya, fizika, informatika, fransız dili, rus dili, rus dili və ədəbiyyatı, alman dili, ingilis dili, fiziki tərbiyə, biologiya, tarix, coğrafiya fənləri üzrə keçirilmişdi.

Test imtahanının nəticələrinə əsasən MİQ üzrə müsabiqədə iştirak edənlərin 22 093 nəfəri vakansiya seçimində iştirak etmək hüququ əldə etmişdir. Müsabiqədə iştirak edənlərin yarıdan az hissəsinin növbəti mərhələdə iştirak etmək hüququ əldə etməsi onu göstərir ki, bütün müəllimlər imtahanlara hələ də ciddi hazırlaşmırlar. Fikrimizcə, müəllimlər bu məsələyə diqqət etməli və öz üzərlərində daha ciddi işləməlidirlər. Onlar birmənalı şəkildə bilməlidirlər ki, ölkəmizdə aparılan təhsil islahatları müstəvisində məktəblərdə daha yüksək bilik və bacarıqlara malik müəllimlərin işləməsi tələb olunur.

Onu da qeyd etmək lazımdır ki, vakansiya seçimi zamanı şəhid ailələrinin üzvlərinə üstünlük verilir. Cari ildə 39 nəfər şəhid ailəsinin üzvü uğur qazanaraq müsahibə mərhələsində iştirak hüququ əldə edib. Vakansiya seçimindən sonra müsabiqənin müsahibə mərhələsi həyata keçirilmişdir. Müsahibənin nəticəsində müddətsiz müqavilə ilə 4537 müəllim vəzifəsinə təyinat alıb. Sentyabrın 3-də təşkil olunan apellyasiya müsahibələrində daha 106 müəllim uğur qazanıb. 1644 müəllimə müqavilə ilə çalışmaq imkanı verilib.

Müəllimlərin işə qəbulu prosesinin bu formada həyata keçirilməsi müəllimlər arasında rəqabətin artırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu, hər bir ali məktəb məzununun bilik və bacarıqlarını artırmaq qayğısına qalmasını tələb edir. Ümumiyyətlə, təhsil məkanında rəqabətin olması zəruri amillərdən biridir. Rəqabət olmayan yerdə inkişafdan söhbət gedə bilməz. Elm və Təhsil Nazirliyi bu məsələni öz fəaliyyətinin strateji nöqtələrindən biri sayır. Müəllimlərin sertifikatlaşması da bu məqsədə xidmət edir. Müəllimlərin işə qəbulundan üç il sonra onların ilk sertifikatlaşma imtahanına cəlb olunması, sonrakı illərdə onların üç dəfə beş ildən bir sertifikatlaşma imtahanında iştirak etməsi nəzərdə tutulur. Hərçənd ki, fikrimizcə, sertifikatlaşma imtahanlarının müəllimlik fəaliyyəti boyu davamlı olması daha yaxşı olardı. Sertifikatlaşma imtahanları da müəllimlər arasında rəqabətin və onların pedaqoji fəaliyyətə məsuliyyətinin artmasına xidmət edir. Cari ildə keçirilən sertifikatlaşma imtahanlarının nəticələrinin təhlili də belə deməyə əsas verir.

Məlum olduğu kimi, ibtidai sinif və Azərbaycan dili və ədəbiyyat müəllimləri bu il təkrar sertifikatlaşmadan keçmişlər. İmtahan verməyə daxil olan 31852 nəfər ibtidai sinif müəlliminin 86%-i, 9892 nəfər Azərbaycan dili və ədəbiyyat müəlliminin 94%-i uğur qazanmışdır. İlk dəfə sertifikatlaşma imtahanına cəlb olunan 8807 nəfər riyaziyyat müəlliminin 90%-i, 13957 nəfər xarici dil müəlliminin isə 79%-i uğurlu nəticələr əldə etmişdir. Düşünürük ki, riyaziyyat və xarici dil müəllimləri arasında keçid balı toplaya bilməyənlər gələn il onlara verilən ikinci şansda daha böyük uğurlar əldə edəcəklər.

Sertifikatlaşma imtahanının nəticələrini təhlil etdikdə müəllimlərin öz fəaliyyətinə məsuliyyətinin artdığı hiss olunur. Qeyd edək ki, riyaziyyat və xarici dil müəllimləri arasında yüksək göstərici əldə edənlərin sayı (müvafiq olaraq 46% və 31%) ibtidai sinif və Azərbaycan dili və ədəbiyyatı müəllimləri ilə müqayisədə (müvafiq olaraq 20% və 28%) daha çox olmuşdur.

Bu gün bütün dünyada olduğu kimi, ölkəmizdə də təhsil prioritet sahələrdən biridir. Təhsil cəmiyyətin inkişafının əsas hərəkətverici qüvvəsidir. Təhsildə uğurun əldə edilməsi üçün ilkin şərt, birmənalı olaraq, müəllimin keyfiyyət göstəriciləri ilə bağlıdır. Azərbaycan müəllimi həmişə bu göstəriciləri ilə zirvədə durub. Təəssüf ki, bu gün bu ifadəni işlətmək heç də həmişə mümkün olmur. Bu, müəllim nüfuzunun cəmiyyətdə azalmasına səbəb olmuşdur. Müəllimlərin işə qəbulu və sertifikatlaşma prosesində hələ də uğur qazanmayan müəllimlərə təsadüf edilməsi belə qənaətə gəlməyə əsas verir. Düşünürük ki, müəllim nüfuzunun geri qaytarılması müəllimin öz əlindədir. Bunun üçün müəllimlərimizdən öz üzərlərində çalışaraq pedaqoji səriştələrini artırmaq və daha keyfiyyətli dərs demək tələb olunur. İnanıram ki, müəllimlərimiz bu taleyüklü vəzifənin öhdəsindən layiqincə gələcəklər.

# Dərsə gedən bir uşaq...




## Məktəb çantasının çəkisi nə qədər olmalı və alarkən nələrə diqqət edilməlidir?

**Məktəblərin açılmasına az qalır. Bu isə valideynlər üçün həyəcanlı və qayğılı bir dönəmin başlanğıcı deməkdir. Bu dövrdə valideynləri ən çox qayğılandıran məsələlərdən biri də övladlarının məktəbə hazırlığı, xüsusilə də məktəb ləvazimatlarının alınmasıdır. Valideynlər yeni tədris ili üçün zəruri olan dəftərlər, qələmlər, məktəbli forması, çanta və digər məktəb əşyalarını almaq məqsədilə müxtəlif mağazaları gəzir, ən yaxşı seçimləri və endirimləri axtarırlar.**

**Müşahidələr göstərir ki, valideynlərin əksəriyyəti məktəbli çantasını doldurarkən və ya alarkən övladlarının fiziologiyasını, yaşını və digər vacib amilləri nəzərə almırlar. Bu isə şagirdin sağlamlığına mənfi təsir göstərə, bel və onurğa problemlərinə yol aça bilər. Həddindən artıq ağır və ya düzgün olmayan ölçüdə seçilən çantalar uşaqların rahat hərəkət etməsini çətinləşdirir ki, bu da onlarda yorğunluq və narahatlıq yarada bilər.**

**Digər tərəfdən, gündəlikdə olan dərslərdən əlavə kitabların və ya materialların məktəbli çantasına yığılması da onun ağırlığını artıraraq şagirdlər üçün "ağır yük"ə çevrilməsinə səbəb olur. Nəticədə, bu fiziki diskomfort şagirdin dərsə olan marağını və diqqətini azaldaraq onun həm sağlamlığına, həm də akademik həyatına mənfi təsir göstərir.**

**"Azərbaycan müəllimi" məsələnin aktuallığını nəzərə alaraq qısa araşdırma aparıb.**

### Yüklənmiş məktəbli çantasının kütləsi uşağın çəkisinin 10-15%-dən çox olmamalıdır

Məktəb çantasının ideal çəkisi bir neçə amildən asılıdır. Bununla yanaşı, ən önəmli amillər isə bunlardır:

1) uşağın çəkisi və fiziki sağlamlığı;
2) çantanın daşındığı məsafə və vaxt;
3) çantanın keyfiyyəti.

Məktəb çantasının ideal çəkisi ilə bağlı bel zədələnməsinin hansı səviyyədə baş verə biləcəyini müəyyən edən dərin elmi-tədqiqatlar mövcud deyil. Bununla belə, əksər təlimatlar göstərir ki, yüklənmiş bir məktəb çantasının çəkisi uşağın bədən çəkisinin 10-15%-dən çox olmamalıdır. Yəni, əgər övladınızın çəkisi 40 kq-dırsa, onun məktəb çantası 4-6 kq-dan çox olmamalıdır.

Əgər uşağınız məktəbə piyada və ya velosipedlə gedirsə, çantanın çəkisini bədən çəkisinin 10%-i civarında olması daha məqsədəuyğundur.

Bəzi araşdırmalarda şagirdlərin oxuduğu sinfə uyğun olaraq məktəbli çantalarının müvafiq çəkiləri olduğu bildirilir, hətta bir çox ölkələrdə məktəbli çantaları üçün normalar, təlimatlar da mövcuddur:

**Siniflər üzrə məktəbli çantasının maksimum çəkisi**

| | |
|---|---|
| 1-ci sinif | 2.4 kq |
| 2-ci sinif | 2.6 kq |
| 3-cü sinif | 3 kq |
| 4-cü sinif | 3.4 kq |
| 5-ci sinif | 3.8 kq |
| 6-cı sinif | 4.1 kq |
| 7-ci sinif | 4.5 kq |
| 8-ci sinif | 5 kq |
| 9-cu sinif | 5.8 kq |
| 10-cu sinif | 6.5 kq |
| 11-ci sinif | 7.3 kq |

Valideynlər, xüsusilə ibtidai sinif şagirdlərinin valideynləri, məktəb çantası seçərkən diqqətli olmalıdırlar. Bu, uşağın fiziki sağlamlığını qorumaq üçün əhəmiyyətlidir.

### Çantanın boş vəziyyətdəki çəkisi 0.5-1 kq arasında olmalıdır

American Academy of Pediatrics-in 2021-ci ildəki məlumatına görə, məktəbli çantası yüngül olmalı və uşağın yükünü minimuma endirməlidir. Yüngül çantalar uşağın bədən duruşuna təsir etmədən, rahatlıqla daşınmasını təmin edir. Çantanın dizaynı onun istifadəsini asanlaşdırmalı və uşağın ehtiyaclarına uyğun olmalıdır. Çantanın boş vəziyyətdəki çəkisi 0.5-1 kq arasında olmalıdır.

Çantanın çəkisi kürəyin hər iki tərəfinə bərabər ölçüdə paylanmalıdır. Bu, uşağın qamətinin düz qalmasına kömək edir. Asimmetrik yük daşıma bel və çiyinlərdə qeyri-bərabər ağırlıq yaranmasına səbəb olur ki, bu, sağlamlıqla bağlı bir sıra problemlərə gətirib çıxara bilər.

Çanta çiyinlərə asılarkən onun bağları elə tənzimlənməlidir ki, ağırlıq bərabər paylansın. Belə ki, American Occupational Therapy Association 2020-ci ildə dərc etdiyi "Ergonomics and Backpack Safety" adlı məqaləsində qeyd edilir ki, çantanın kəmərləri uşağın çiyinlərinə yaxşıca uyğun gəlməli və onlara əlavə təzyiq yaratmamalıdır. Çantanın bel hissəsi, onurğa sütununu dəstəkləmək üçün düz və uyğun olmalıdır. Düzgün yerləşdirilmiş kəmərlər çantanın yükünü bədənə düzgün şəkildə yayaraq qamət problemlərinin qarşısını alır.

### Məktəbli çantası uzun müddət çiyinlərdə daşınmamalıdır

Yuxarıda qeyd etdiyimiz kimi, məktəb çantası bel və çiyinlərdə narahatlıq yaratmayan çəkidə olmalıdır. Həmçinin çantanı uzun müddət daşımamağa diqqət yetirilməlidir. Bu baxımdan evə yaxın məktəblər daha əlverişlidir.

Nəzərə almaq lazımdır ki, məktəb çantaları getdikcə uşaqlarda onurğa və bel problemlərinə səbəb olur. Xüsusilə onurğanın inkişafının baş verdiyi 8-18 yaş arasında kürək çantalarının getdikcə daha tez-tez istifadəsi uşaqlarda bel və çiyin ağrılarının artmasına, onurğanın əyilməsinə, hətta ağciyərə və tənəffüs yollarına məhdudlaşdırıcı təsirlərə səbəb ola bilər.

### Məktəb çantasının bel səviyyəsindən 5 santimetr yuxarıda qalmasına diqqət yetirin

Məktəb çantasının düzgün seçimi və istifadəsi çox önəmlidir. İlk növbədə, mümkün qədər yüngül bel çantalarına üstünlük verilməlidir. Çanta alarkən onun boş çəkisini diqqətlə nəzərə alın; unutmayın ki, əlavə aksessuarlar çantanın ümumi çəkisini artıracaq. Çantanı tənzimləyərkən, onun bel səviyyəsindən 5 santimetr yuxarıda qalmasına diqqət yetirin, çünki aşağı düşən çanta beldə ağırlıq yarada bilər.

Çantanı daşıyan zaman hər iki çiyindən asılması vacibdir, tək çiyində daşınması düzgün deyil. Əşyaların çantada bərabər paylandığından əmin olun; daha ağır əşyalar üçün arxa və orta gözləri seçin. Çantanı yerdən qaldırarkən dizlər bükülü şəkildə, çantanı iki əllə tutaraq qaldırmalıdır.

Valideyn olaraq həftədə ən azı bir dəfə çantanı tamamilə boşaldıb lazımsız əşyaları çıxarmağınız və övladınıza çantanı necə düzgün daşımalı olduğunu xatırlatmağınız yaxşı olar.

Bunlarla yanaşı, övladınız üçün məktəb çantası seçərkən aşağıdakı tövsiyələri nəzərə ala bilərsiniz:

Çantanın bir yox, uzunluğunu tənzimləmək mümkün olan iki qulpu olması. Qulplar uşağın qolunu sıxmamalı, onun hərəkət rahatlığını təmin etməlidir;

Pambıq materialdan və xüsusi ortopedik qaydalarla hazırlanmış beli əzməyən modellər prioritet olmalıdır. Kitabların küncləriniın və ya digər sərt alətlərin uşağın kürəyini əzməməsi üçün arxa "yastığı" olan çantalar daha məqbul sayılır;

Dərslik və digər ləvazimatlarla yüklənən çanta aşağı çəkiləcəyi üçün qulplar yumşaq, dolğun və bərabər uzunluqda olmalıdır. Bu, çantanı daşıyarkən çiyin hissəsinin rahatlığını təmin edəcəkdir;

Əlavə cib və bölmələrin olması üstünlük sayılır ki, bura da su və qida məhsulları qoymaq mümkündür;

Şagirdə məktəb çantasını toplayarkən dərs cədvəlinə əməl etmək və artıq çəkidən qaçmaq gərəkliyini izah etmək lazımdır. Gigiyena dəsti, salfetlər və dezinfeksiyaedici vasitələr də unudulmamalıdır.

**Vaqif FƏTULLAYEV**

***Çantanı tənzimləyərkən, onun bel səviyyəsindən 5 santimetr yuxarıda qalmasına diqqət yetirin, çünki aşağı düşən çanta beldə ağırlıq yarada bilər. Çantanı daşıyan zaman hər iki çiyindən asılması vacibdir, tək çiyində daşınması düzgün deyil***



# Məktəb şagirdlərinin yolunu gözləyir...




## Yeni tədris ilinə HAZIRIQMI?

Reportaj

**Yeni dərs ilinin başlanmasına sayılı günlər qalır. Bir neçə gündən sonra sakit, sükut dolu məktəb dəhlizləri, sinif otaqları şagirdlərin şaqraq gülüşləri, hay-küylü səsləri ilə yenidən canlanacaq. Bəli, məktəb şagird və müəllimləri ilə məktəb olur. Bəs görəsən məktəblərimiz sahiblərini qarşılamağa hazırdırlarmı? Bu suallara cavab tapmaq üçün qəzetimizin fotoqrafı Kənan Qafarovla birlikdə yolumuzu Bakı şəhəri Ağabəy Novruzbəyli adına 46 nömrəli tam orta məktəbə salırıq. Burada məktəblərə xas olan öyrəşdiyimiz mənzərənin əksi, tam sakitçilikdir. Dəhliz boyu məktəbin divarlarında guşələr, fotosərgilər, şagirdlərin rəsm əsərləri, müxtəlif məzmunlu məlumat lövhələri diqqətimizi çəkir. Onlarla tanış olduqca, artıq demək olar ki, məktəbin ümumi fəaliyyəti, uğurları, şagirdlərinin bacarıqları barədə müəyyən təsəvvürümüz yaranır. Qapının üstündə direktor yazılan otağa daxil olmaq istəyəndə yan otaqda kifayət qədər müəllimin toplaşdığını görürəm. Onlar məktəbdə olduqlarını təsdiqləmək üçün davamiyyət jurnalına qol çəkirdilər. Nə olsun ki, hələ dərs başlanmayıb. Müəllimlərin ki məzuniyyəti bitib... Və onlar artıq iş başındadırlar. Nizam-intizam da məhz davamiyyətdən başlayır.**





### “Bu günün yüksək təhsili, sabahın parlaq gələcəyi, inkişafın qarantıdır"

Məktəbin direktoru Əməkdar müəllim Sevinc Budaqova ilə görüşürük. Deyir ki, bir azdan pedaqoji kollektivlə yeni tədris ilinin başlanması ilə əlaqədar iclas keçirəcək. Vaxtdan istifadə edib, məktəb haqqında məlumat verməsini istəyirəm.

Öyrənirəm ki, məktəb 1969-cu ildə tikilib. 2014-cü ildə əsaslı təmir edilib və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ümumi təhsil müəssisəsinin açılışında iştirak edib. 4 mərtəbəli məktəbin 53 sinif otağı, idman, akt zalları və yeməkxanası var. Təhsil ocağında pedaqoji kollektivin fəaliyyət göstərməsi və şagirdlərin müasir tələblərə cavab verəcək səviyyədə təhsil almaları üçün hər cür şərait yaradılıb. Məktəb yüksək tələblərə cavab verən avadanlıq və müasir dərs ləvazimatları ilə təchiz edilib. Təhsil ocağı 2024-2025-ci tədris ilinə 1300 şagirdlə başlayacaq. Onların təlim-tərbiyəsi ilə 84 müəllim məşğul olacaq. Burada tədris Azərbaycan və rus dillərində aparılır. Rus bölməsinin nəzdində yəhudi əsilli uşaqlardan ibarət komplektləşdirilmiş siniflərdə ivrit dili tədris olunur və onların təhsili üçün məktəbin digər korpusunda hər cür şərait yaradılıb. Həmçinin orada yəhudi ailələrdən olan uşaqlar üçün bağça və məktəbəqədər hazırlıq qrupu da fəaliyyət göstərir.

Məktəb iki dəfə “Ən yaxşı ümumtəhsil müəssisəsi” müsabiqəsinin qalibi olub. Yeni tədris ilinə hazırlıqla bağlı işlərin demək olar ki, yekunlaşmaq üzrə olduğunu deyən direktor təhsil müəssisəsinin daxili imkanları hesabına artıq məktəbin bütün mərtəbələr üzrə dəhlizlərində, həmçinin məktəblə daim əməkdaşlıq edən fəal valideynlərin dəstəyi ilə müəyyən siniflərdə cari təmir işlərinin başa çatdığını qeyd edir: “Bilirsiniz, elə valideynlərimiz var ki, onlar daim bizimlə fəal əməkdaşlıq edirlər. Çalışırlar ki, məktəbin inkişafında onların da əməyi keçsin, təhsil ocağında aparılan proseslərin iştirakçısı olsunlar. Və çox xoşdur ki, valideynlərimiz bizimlə birlikdə məktəbə hazırlıq işlərində öz köməklərini əsirgəmirlər. Fürsətdən istifadə edərək kollektivimiz adından onlara təşəkkürümü bildirirəm”.

Direktor onu da bildirir ki, ümumtəhsil müəssisəsində təmizlik işləri aparılıb, məktəbətrafı sahə abadlaşdırılıb.

Şagirdlərin dərslik komplektləri ilə təmin olunması prosesinə start verilib, onların təhsil alacaqları siniflər müəyyənləşdirilib. Məktəbin ibtidai siniflərində təhsil alan şagirdlər 2-ci, yuxarı siniflərdə təhsil alanlar isə 3-4-cü mərtəbələr üzrə paylaşılıb. Şagirdlərin siniflər üzrə dərs cədvəlləri hazırdır və müəllimlərin dərs saatlarının bölgüsü aparılıb. Bundan başqa, 2024-2025-ci tədris ilində məktəbdə bir sıra yeniliklərin tətbiqi gözlənilir. Belə ki, pilot layihə olaraq tətbiq olunan “Ümumi təhsil müəssisələrində şagird davranış qaydaları” bu məktəbdə də keçərli olacaq. Təhsil müəssisəsi yeni tədris ilindən adıçəkilən layihəyə qoşulan növbəti məktəblərdən biri olacaq. Artıq bununla bağlı həm müəllimlər, şagirdlər, həm də valideynlər məlumatlandırılıb. Keçirilən valideyn iclaslarında bu barədə geniş maarifləndirmə işləri aparılır. Hər bir sinfin qapısında yeni şagird davranış qaydaları ilə bağlı müxtəlif məlumat xarakterli lövhələr vurulacaq.

Məktəb həmçinin yeni tədris ilindən şagirdlərin İKT bacarıqlarına dərindən yiyələnməsi, onların informasiya məkanında məqsədyönlü fəaliyyətinə nail olunması, rəqabətqabiliyyətli və məntiqi düşüncə tərzinə malik şəxslər kimi formalaşmasını təmin etmək məqsədilə ümumtəhsil müəssisələrində tətbiq olunan “Rəqəmsal bacarıqlar” layihəsinə də qoşulur. Direktor qeyd edir ki, bu layihə şagirdlərin gələcəyi üçün yararlı olan alqoritmik düşüncə və məntiqin inkişafına, yeni texnologiya və rəqəmsal bacarıqları təcrübədə öyrənməyə, proqramlaşdırmanın sirlərinə bələd olmağa imkan yaradır.

Təhsil müəssisəsində şagirdlərin rahat məşğul ola bilmələri üçün STEAM kabineti də var.

Məktəbdə təlim-tədris prosesinin keyfiyyətinin artırılması işi diqqətdə saxlanılan başlıca məsələlərdəndir. Direktor bildirir ki, elə məktəbin devizi də yüksək təhsilin önəmini bir daha vurğulayır: “Bu günün yüksək təhsili, sabahın parlaq gələcəyi, inkişafın qarantıdır”.

### Əsas məsələ şagird, valideyn məmnunluğudur

Sevinc Budaqova söyləyir ki, onlar üçün əsas məsələ şagird, valideyn məmnunluğudur. Valideyn istənilən zaman öz övladının oxuyacağı siniflə, müəllimləri ilə, bütövlükdə məktədə yaradılan şəraitlə tanış ola bilər. Və onları maraqlandıran bütün suallar ən xırda detallara qədər məktəbin rəhbərliyi və pedaqoji heyət tərəfindən cavablandırılmalıdır. Uşaqların sağlamlığı, təhlükəsizliyi də məktəbin başlıca vəzifələrindən biridir.





Sevinc Budaqova ilə xeyli söhbətləşdikdən sonra o, pedaqoji heyətlə bir azdan keçiriləcək iclasdan öncə otağına direktor müavinləri Gülnarə İsmayılovanı, Lalə Ələkbərovanı və təşkilatçı Aida Quliyevanı çağırır. Onlarla yeni tədris ilinə hazırlıqla bağlı mövcud vəziyyəti təhlil edir. Elm və təhsil naziri Emin Əmrullayevin ümumi təhsil müəssisələrində 2024-2025-ci tədris ilinin təşkili barədə müvafiq əmrinə uyğun olaraq ümumi təhsil müəssisələrinin II-XI siniflərində ilk dərs gününün “Yaşıl dünya naminə həmrəylik” mövzusuna həsr olunması ilə bağlı məktəbdə aparılan hazırlıqlarla əlaqədar müavinlərin hesabatlarını dinləyir, bu istiqamətdə görüləcək işlər barəsində müəyyən tapşırıqlarını verir.

Qısa çəkən iclas başa çatır və müavinlərlə məktəbi gəzməyə davam edirik. Yenicə təmirdən çıxmış işıqlı dəhlizlər, sinif otaqları göz oxşayır. Kitabxanaya daxil oluruq. Kitabları komplektləşdirən kim, siniflərə aparan kim. Hər kəs öz işi ilə məşğuldur. Dərslik komplektləri sinif rəhbərlərinə təhvil verilirdi. Kitabxananın müdiri Təzəgül Məmmədovaya yaxınlaşırıq. Deyir ki, bir sıra dərsliklər yeniləndiyi üçün şagirdlərimizə təzələri veriləcək. Kitabxanada kifayət qədər dərslik var və demək olar ki, əksər sinif rəhbərləri artıq öz şagirdləri üçün dərslikləri təhvil alıblar. Bir-iki günə bu proses tamamlanacaq.

### Təmirli sinif otağı, gözəl şərait...

Öz şagirdlərinin dərsliklərini kitabxanadan təhvil alan IV sinif müəllimi Gülarə Qarayeva ilə birlikdə onun sinfinə gedirik. Təzə təmirdən çıxmış sinif otağı, burada yaradılan şərait göz oxşayırdı. Gülarə müəllim deyir ki, 30 şagirdin təlim-tərbiyəsi ilə məşğuldur. Şagirdləri üçün darıxdığını söyləyən pedaqoq ona dəstək olan bütün valideynlərə minnətdarlığını bildirir. Qeyd edir ki, sinfin valideynləri uşaqlarının istər təlimi, istərsə də tərbiyəsi ilə gündəlik olaraq maraqlanırlar. Sinifdə uğurlu müəllim-şagird-valideyn əməkdaşlığı qurulub. Bu dərsliklər də valideyn iclasında valideynlərə təqdim olunacaq.

### Təmizlik məktəbin güzgüsüdür

Təhsil müəssisəsində səliqə-səhman göz oxşayırdı. Gəzdiyimiz bütün sinif otaqları tərtəmiz idi. Məktəbin təmizlik işlərinə baxanlardan biri ilə söhbətləşirəm. Mehparə Yusifova 20 ilə yaxındır bu ümumtəhsil müəssisəsində təmizlik işlərinə baxır. İkincilərin oturduğu sinfin pəncərələrinin şüşələrini silirdi. Adama elə gəlirdi ki, sanki öz evinin təmizliyini aparır. Ürəklə, böyük həvəslə çalışırdı. Deyir ki, bu məktəb onun üçün də doğmadır. Tökdüklərini yığışdırdığı nadinc şagirdlər üçün xüsusilə darıxıb. “İşiniz ağır deyil ki? - sualıma cavabı bu olur ki, işinə məsuliyyətlə yanaşan üçün iş həmişə ağırdır. Əvvəllər məktəb təmirsiz idi, onda yığışdırmaq çətin idi. Məktəbimiz əsaslı təmir edildikdən sonra işimiz yüngülləşdi. Bilirsiniz, təmizlik məktəbin güzgüsüdür. Məktəbə daxil olan hər bir kəs ora baxır və o ayna hər zaman təmiz olmalıdır. Zəhmətkeş qadınla sağollaşıb çıxıram və dəhlizdə balaca bir qızın dayandığını görürəm.





### Məktəbi, sinif yoldaşları üçün çox darıxıb

Ayan Qarayeva bu məktəbin 3-cü sinfində oxuyacaq. Anası bu məktəbin müəllimi, özü isə şagirdidir. Məktəbi, müəllimi və yoldaşları üçün çox darıxdığını bildirir. Deyir ki, işıqlı məktəbi var və burada təhsil almaq onun xoşuna gəlir.

Müəllimlər Lamiyə Əhmədovanın, Səbinə Behbudovanın, Fatma Quliyevanın da siniflərində oluram. Partaların üzərində hər bir fənn üzrə dərsliklər qoyulub. Valideynlər iclas günü gəlib aparacaqlar. Deyirlər ki, məktəb şagirdlərsiz cansıxıcıdır. İndiki yeniyetmələr daha hazırlıqlı və məlumatlıdırlar. İT bacarıqları da yüksək səviyyədədir. Həmsöhbətim olan müəllimlər də yeni tədris ilinə hazırlaşırlar. Deyirlər ki, müəllim daim öz üzərində işləməli, yaradıcı olmalıdır. Uşaqlarda fənnə maraq oyatmaq, sevdirmək də müəllimin peşəkarlığından bilik və bacarığından asılıdır.

Digər olduğumuz fizika kabineti və laboratoriya otağı da ən müasir avadanlıqlarla təchiz olunub. Fizika fənni üzrə metodbirləşmənin sədri Solmaz Ulubəyova həm də STEAM dərslərini aparır. Şagirdlərin hazırladıqları əl işlərini bizə göstərir. Rus bölməsinin fizika müəllimi Asiya Qasımova isə dərs planını hazırlayırdı.

### Valideynin arzusu

Artıq günortadır. Yavaş-yavaş valideynlərin məktəbə gəldiyini müşahidə edirik. Onlara yaxınlaşıb məktəbə gəlişinin səbəbini soruşuram. Valideyn Mədinə Dadaşova deyir ki, özü də məktəbin məzunu olduğuna görə bura onun üçün doğmadır. Buradakı təlim-tərbiyə prosesindən razıdır. İki qızı da bu məktəbdə təhsil alır. Böyük qızı Sara VIII, kiçiyi İradə isə IV sinifdə oxuyacaqlar. Sara gələcəkdə ibtidai sinif müəllimi olmaq, özü də oxuduğu məktəbdə çalışmaq istəyir.

Digər söhbətləşdiyim valideyn Röya Əliyeva da bu məktəbin məzunudur. Kiçik qızı Zeynəb Salahova 1-ci sinifdə oxuyacaq. Onun sənədlərini məktəbə gətirib. İbtidai sinif müəllimi Sevda Heydərovadır. Böyük qızı digər məktəbdə oxuyur. Onu da bu təhsil ocağına gətirməyi düşünür.

### Yeni dərs ilinə, yeni arzularla...

Beləcə, məktəblə ətraflı tanışlığımız yekunlaşır. Yeni dərs ilinə yeni arzularla qədəm qoyan ümumi təhsil müəssisəsinin rəhbərliyinə, pedaqoji kollektivə uğurlar diləyərək yenidən buraya dönmək arzusuyla ayrılırıq.

Şagird həniri, səs-küyü üçün darıxan məktəb sahiblərinin yolunu gözləyir...

**Samirə KƏRİMOVA**
**Foto: Kənan QAFAROV**

# "QARABAĞDA təltif olunmaq qürurvericidir"

## İlin gənc müəllimləri Şuşada mükafatlandırıldılar

**"Azərbaycan müəllimi" qəzeti ilə AzEdu.az Təhsil Portalının birgə keçirdiyi "İlin Gənc Müəllimi-2023" müsabiqəsinin qaliblərinin təltif olunması mərasimi keçirilib. Məqsədi motivasiya dolu həyat hekayələri, ilhamverən fəaliyyətləri ilə şagirdlərə, eləcə də müəllim həmkarlarına dəstək olan, müasir dərs metodları ilə keyfiyyətli və yaradıcı təhsil mühiti yaradan ən yaxşı 10 gənc pedaqoq mükafatlandırılıb.**




"Azərbaycan müəllimi" xəbər verir ki, ölkənin müxtəlif bölgələrindən qalib olan iştirakçılar toplaşaraq Şuşaya- Mədəniyyət paytaxtımıza yola düşüblər. "İlin gənc müəllimləri" burada Şuşa şəhər 1 nömrəli tam orta məktəbdə diplomla təltif olunublar.

AzEdu.az Təhsil Portalının təsisçisi, Parlament Jurnalistlər Birliyinin sədri, jurnalist Elşad Eyvazlı iştirakçılara təşəkkürlərini bildirərək uğurlar arzulayıb.

Layihə barədə geniş məlumat verən E. Eyvazlı müsabiqənin qabaqcıl müəllimlərin ictimaiyyətə tanıdılmasında çox böyük rol oynadığını vurğulayıb. O, bildirib ki, layihə indiyə qədər AzEdu.az tərəfindən, bu il isə "Azərbaycan müəllimi" ilə birgə keçirilir.

"Müsabiqənin mükafatlandırma mərasiminin ilk dəfə Şuşada keçirilməsi çox qürurvericidir. Ali Baş Komandanın rəhbərliyi ilə şəhid və qazilərimizin canı bahasına alınan torpaqlar üçün ömürboyu onlara borclu olacağıq".

"Bizim şagirdlərimiz olmasaydı, bu müsabiqədə qalib gəlməyimiz mümkünsüz olardı"

III yerin qalibi, Bakı şəhəri, Xətai rayonu 17 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi, Elmira Ağayeva Şuşada olduğu üçün qürurlu hiss etdiyini bildirib:

"Qarabağda təltif edilmək qürurvericidir. Şuşaya gələrkən yol boyu həyəcanımı cilovlamağa çalışırdım. Həm "Örnək müəllim", həm də "İlin gənc müəllimi" olmaq mənim üçün çox qürurvericidir. Bütün gənc müəllimlərə fəaliyyətlərində uğurlar arzulayıram".

Lənkəran rayonu Gərmətük qəsəbə tam orta məktəbin texnologiya müəllimi Dünya Veysəlova bu günün onun həyatında ən sevincli gün kimi qalacağını vurğulayıb:

"Əminəm ki, "İlin gənc müəllimi" adını Qarabağda almaq burada olan həmkarlarım üçün də yaddaqalan olacaq".

Qax rayonu Qaratala kənd tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi İlahə Hüseynova bu adı Qarabağda qazanmağın çox qürurverici olduğunu qeyd edib:

"Müəllimlik həyatımda yaşadığım ən gözəl günlərdən biri bu gündür. Qarabağda olmaq, "İlin gənc müəllimi" adını qazanmaq çox qürurvericidir".




Daha sonra "Azərbaycan müəllimi" qəzetinin baş redaktoru Sarvan İbrahimov tədbirin Şuşa şəhər 1 nömrəli tam orta məktəbdə keçirildiyindən qürurlandığını bildirib:

"İlk dəfədir Şuşaya gəlirəm, burada olmaq sevincini və qürurunu sözlə ifadə etmək çox çətindir. Müəllimlərin hər birini təbrik edirəm. Siz gənc müəllim olaraq gənc nəslin formalaşmasında, onların vətənpərvərlik tərbiyəsində mühüm rol oynayırsınız. "Azərbaycan müəllimi" qəzetində hər biriniz öz maraqlı yazılarınızı, təcrübələrinizi həmkarlarınızla bölüşə bilərsiniz".

AzEdu.az Təhsil Portalının direktoru Tünzalə Abbasova müəllimləri salamlayaraq, onlara burada olduqları üçün öz təşəkkürünü bildirib:

"Qarabağın tacı sayılan Şuşanın tariximizdə öz yeri var. Hesab edirəm ki, "İlin gənc müəllimi" müsabiqəsinin qaliblərinin Şuşada təltif edilməsi onlar üçün olduqca əhəmiyyətlidir. Müsabiqənin mükafatlandırılma mərasiminin Qarabağda keçirilməsi bizim üçün də ilk oldu. Qaliblərin hər birinə gələcək fəaliyyətində uğurlar arzu edirəm".

Sonra qaliblərə diplom və hədiyyələr təqdim olunub.

I yerin qalibi, Kəlbəcər rayon 28 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Rəşad Hümbətov həmkarlarına uğurlar arzulayıb:

"Burada oturan bütün həmkarlarıma gələcək fəaliyyətlərində uğurlar arzulayıram. "İlin gənc müəllimləri"ni Şuşada təltif etmək olduqca təqdirəlayiq addımdır. Mən burada olmaqdan qürur duyuram".

II yerin sahibi, İsmayıllı rayonu Zaman Qarayev adına Qalınçaq kənd tam orta məktəbinin Azərbaycan dili və ədəbiyyat fənn müəllimi Xəzri Muradov layihə ilə bağlı AzEdu.az-a öz təşəkkürünü bildirib:

Beyləqan rayon Fazil Miriyev adına Araz qəsəbə tam orta məktəbin ingilis dili müəllimi, Gülnarə Məmmədova təəssüratlarını bölüşüb:

"Bizə bu şəraiti yaratdığınız üçün çox minnətdaram. Başda AzEdu Təhsil Portalı olmaqla bu layihədə mənə dəstək olan hər kəsə təşəkkürlərimi bildirirəm. Həm müəllim, həm də rəhbər kimi burada olmaqdan qürur duyuram".

Gədəbəy şəhər İ.Əliyev adına 1 nömrəli tam orta məktəbin biologiya müəllimi Şəfa Həsənova bildirib ki, birlikdə daha böyük uğurlara imza atacağıq:

"Bu müsabiqəyə qatılmaqla çox dəyərli həmkarlar tanıdım. İnanıram ki, onlarla birgə daha böyük uğurlara imza atacağıq".

Göyçay şəhər M.Füzuli adına 6 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Aynur Əliyeva Şuşada olduğu üçün qürurlu və kövrək olduğunu bildirib:

"Həmkərlarımın hər birinə uğurlar arzulayıram".

Ucar şəhər N.Gəncəvi adına 3 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Gülçöhrə Xəlilova da həmkarlarının təbriklərinə qoşulub:

"Bu adı qazanmaq mənim üçün qürurvericidir. Ümid edirəm ki, bu cür layihələrdə tez-tez qarşılaşarıq".

Ağdaş rayon Qəsil kənd Ramiz Hacıyev adına tam orta məktəbin ingilis dili müəllimi Lalə Əfəndizadə də qaliblər sırasındadır.

Sonda xətirə şəkli çəkilib və Şuşa şəhər 1 nömrəli tam orta məktəblə tanışlıq olub.

## Şuşa şəhəri - 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı"

# Azərbaycan ədəbiyyatında Şuşanın tarixi abidələri




*Qayalar qaladır,*
*Qalalar - qaya,*
*Bu yerlər tarixin daş səhifəsi,*
*Binalar ucadan baxar dünyaya,*
*Hər evin daşında bir əsrin səsi*

Azərbaycan ədəbiyyatı hər daşı, hər qayası tarix olan Şuşa haqqında yazılmış istər elmi-tarixi, istərsə də bədii əsərlərlə zəngindir. Bu əsərlərdə Şuşanın yaranma tarixi, onun inkişafı, misilsiz gözəlliyinin vəsfi, eləcə də müxtəlif illərdə işğalçıların hücumlarına məruz qalması və s. məsələlər əksini tapmışdır. Nümunə olaraq gətirilən bu şeir parçasında əsrlərin daş yaddaşında yaşayıb bina-bina ucalıb qalalaşan qədim yurd yerimizin əzəmətli görkəmi əksini tapmışdır.

Şuşa şəhərinin yaranma tarixi Mirzə Yusif Qarabağinin "Tarixi-Safi" əsərində: "...1166 (1752)-cı ildə Pənah xan xoş bir gündə Şuşa şəhərinin təməlini qoydu.... Şəhər cənub-qərbdən, şimal-şərqdən, həmçinin qərb və cənub tərəfdən piyada və qeyriləri üçün gediş-gəliş mümkün olmayan möhkəm hasar və təbii sıldırım qayalarla əhatə olunmuşdur" şəklində dəqiqliyi ilə verilmişdir.

Bu tarixi gerçəklik bədii sözün qüdrəti ilə dəfələrlə canlandırılmış və onun maddi-mənəvi dünyamızda nə dərəcədə tarixi əhəmiyyət kəsb etdiyi diqqətə çatdırılmışdır. Həmin tarixi fakt Azərbaycanın maarifpərvər şairi Həsənəli Qaradağinin "Qarabağın şəhəri" şeirində belə təsvir edilib:

*Bu şəhərin hüdudu şərq tərəf Şüşü çayı,*
*Var, belə qərb tərəf Sarıbaba yer deyilər,*
*Cənubu yenə Şüşü, bir də Daşaltı çayıdır,*
*Şimali Xəlfəli çay, belə olub sərhədlər.*

Araşdırma göstərir ki, yalnız coğrafi mövqeyi deyil, onun bütün məhəllələri, memarlıq abidələri, can dərmanı olan sərin bulaqları görkəmli şair və yazıçılarımızın qələmi ilə geniş oxucu kütləsi üçün doğmalaşdırılmışdır.

Məsələn, 1871-ci ildə Xan qızı Natəvanın öz vəsaiti hesabına Şuşada yerləşən Xəlfəli dağından saxsı borularla şəhərə su çəkildi və iki böyük bulaq tikildi: "Xan qızı" və "Şor bulaq". "Xan qızı" bulağının çəkilişi barədə İ.Əfəndiyevin "Xurşidbanu Natəvan" pyesində də (1978) Natəvanın dilindən deyilir: "Xurşidbanu. Tapşır, Şuşaya çəkdirdiyimiz bulağın mühəndisi Əbdürrəhim Talıbzadəni nahardan sonra mənim yanıma çağırsınlar.

Həmçinin əsərdə Knyaz Xasayın "Peterburqun, Parisin salonları üzümüzə açıq olduğu halda, axı, biz nə üçün (Qalanı Şuşanı-B.İ.) kəsdirib oturmuşuq" sualına cavab olaraq Xurşidbanu belə cavab verir: "Mən bu bulağı onlar üçün tikdirmişəm. Mən o bulağı qışın çovğununda yeddi-səkkiz kilometr piyada yol gedib, meşədən şirin su gətirən zəhmətkeş əhali üçün çəkdirmişəm".

Görkəmli şair Xəlil Rza Ulutürkün "Şuşa səfəri" poemasında İsa bulağı, Qoşabulaq, Aydın bulağı, Bəylər bulağı, Buz bulaq, Səkili bulaq, Çömçə bulağı, Damcı bulağı, Bədəl bulağı, Dambulağı, Lilpər bulağı, Novlu bulaq, Şırşır bulağı, Armud bulağı, Hacı bulağı, Dərə bulağını "Şuşanın dirilik çeşməsi" adlandıraraq fikrini belə ümumiləşdirir:

*Biri daşdan çıxır, biri qayadan,*
*Hamısı ilgili, canbir, əlbirdir.*
*Üzdən ayrısa da, yerin altında,*
*Bütün bulaqların kökləri birdir.*

Eləcə də Ramiz Məmmədzadənin "Qarabağım", İsa Əvəzoğlunun "Şuşamızın zinətidir" şeirlərində Şuşa bulaqları böyük sevgi ilə vəsf edilir.

*"Şah bulaq"dan içək bu gün,*
*"Çay bağça"dan keçək bu gün,*
*Dincəlməyi seçək bu gün*
*"Xan bağı"nı Qarabağın.*

***

*Sarıbaba- cənnət yeri,*
*Turşsu suyu can kövsəri,*
*İsa bulaq - nazlı pəri*
*Şuşamızın şöhrətidir.*

Ədəbi əsərlərdə Şuşanın bu gün tarixi abidəyə çevrilən Qızıllı qaya, Qara qaya, Göy qaya, Ala qaya, Xəlfəli dərəsi, Mıxtökən dərə, Yusifcan gədiyi, Şimşəkvuran daş, Şuşa yaylası, Şotlanlı yaylağı, Keçili dağı, İsmayıl binəsi, Bəylər binəsi, Cıdır düzü böyük sevgi ilə vəsf olunmuşdur.

Xalq şairi Səməd Vurğun "Qız qayası" şeirində Qarabağın səfalı guşələrindən İsa bulağı, Cıdır düzü, Çanaqqalanın gözəlliklərindən bəhs edir, Qız qayasına qalxaraq onun haqqında əfsanəni belə başlayır:

*Çıxmışam dağların göy yaxasına,*
*Doyunca baxmışam Qız qayasına.*
*Orda saqqalına yaş dama-dama,*
*Əfsanə söyləmiş bir qoca mənə...*

Şuşanın tarixi yerlərindən sayılan Cıdır düzü, Topxana meşəsi, Xəzinə qayası kimi tarixi yerlər poeziyamızda daha çox vəsf edilmişdir. Məsələn:

*Topxanadan baxıram mən dünyaya,*
*Başım üstdə Cıdır düzü? bayrağım.*
*Bir örnəkdir bu gün Vətən dünyaya,*
*Sən dönməzsən, əyilməzsən torpağım.*

Şuşa yalnız gözəlliklər, möhtəşəm abidələr yurdu deyil, həm də keşməkeşli tariximizin qanlı hadisələrinin şahidi olmuşdur. Xüsusilə 1905-ci ilin 16 avqust və 1906-cı ilin 12 iyulunda ermənilər tərəfindən törədilmiş faciələr C.Cabbarlının "1905-ci il" pyesində, M.S.Ordubadinin "Qanlı sənələr" əsərinin "Ağrılı Şuşa hadisələri. Yaxud avamlıq bəlası", "İkinci Şuşa faciəsi. Yaxud Qalaşçapovun hiyləsi" bölmələrində, Məhəmməd şah Qacarın Qarabağa hücumu Y.V.Çəmənzəminlinin "Qan içində", S.Vurğunun "Vaqif" pyesində, çar Rusiyası qoşunlarının Azərbaycana, o cümlədən Şuşaya gəlməsi İ.Əfəndiyevin "Hökmdar və qızı" pyesində əksini tapmışdır.

"Şəhərlilər dəstə-dəstə Cıdır düzünə toplanıb, oradan Topxananı başdan-başa tutmuş şah çadırlarına tamaşa edirdilər. Bəzən sakitlik olur, iki tərəf də dincəlməyə və ya yeməyə dalırdı. Bir də görürdün, top atışmaları başlandı, barıt tüstüsü ətrafı bürüdü. Bu atışmadan, təbii idi ki, heç bir nəticə çıxmayırdı. Topxana ilə şəhərin arasında dərin bir uçurum var idi, bunun da dibindən Daşaltı çayı axırdı. Oranı keçmək qətiyyən mümkün deyildi. Keçilsəydi belə sıldırım qayaları, şəhər barı və bürclərini almaq mümkün olan şeylərdən deyildi: on beş min igid gecə-gündüz şəhərin keşiyini çəkirdi.

Qala ilə Topxananın arasındakı keçidin ən dar yeri Xəzinə qayasının önü idi. Ağaməmməd şah bura plan tökdürüb, keçmək niyyətinə düşdüsə də, bir nəticə çıxmayacağını anlayıb vaz keçdi. Nəhayət, o acığa düşüb, İbrahim xanın yanına qasid vasitəsilə bir məktub göndərdi. Qasidin gözlərini bağlayıb, saraya gətirdilər. Məktubda yazılmışdı: "Fələyin mancanağı fitnə daşını sənin üstünə yağdırır, Sən də axmaqcasına şişənin [Şişə qalasının] içində gizlənmisən".... Vaqif məktubu alıb, bir də gözdən keçirdi, sonra arxasına yazdı: "Məni qoruyub saxlayan mən tanıdığımdırsa, inanıram ki, o, Şişəni daşın içində də qoruyar".

Tarix təkrar olunur. 1992-ci ildə Şuşanın ermənilər tərəfindən işğal olunması ədəbiyyatımızda yeni bir səhifə açdı: "Şuşa işğal dövründə". 28 ili əhatə edən həmin dövrdə qəlbi vətən eşqi ilə döyünən sənətkarlarımız bu nisgili, ağrı-acını əks etdirən yüzlərlə əsər yazdı. Bəxtiyar Vahabzadənin "Oxuma, bülbül", Cabir Novruzun "Şuşanın dağları başı dumanlı", İlyas Tapdığın "Şuşa oratoriyası", Günel Anarqızının "Şuşam", Zemfira Məhərrəmlinin "Sevgimi neylədin Daşaltı dərəsi", Pərvin Nurəliyevanın "Çarəsiz yalan", Nüşabə Məmmədlinin "Zəngulə", Ələmdar Quluzadənin "Bu qala bizim qala" əsərləri belələrindəndir. Deməк olar ki, hər bir əsərdə Şuşanın tarixi yerləri xatırlanır, tarixi abidələrinin adı çəkilir.

*Bu bahar oxuma, bülbül, sən Allah!*
*Zülmətdir,*
*Yoluna şam tutanın yox,*
*Şuşan ağlar qaldı, köçdü el-oba,*
*Şirin cəh-cəhinə dəm tutanın yox*

***

*Top atılar "Topxana"dan*
*"Daşaltı"da daşlar partlar,...*
*Şuşam geri alınmasa.*

***

*...Gülləbaran olub neçə min arzu,*
*Donub "Xan qızı"nın bulağında su.*

***

*Bu da "İsa bulağı"dır...ilahi,*
*Çırpır ayna sinəsini daşlara...*
*Nədir suçu, nədir axı, günahı,*
*Qurumayır gözlərinin yaşları...*

***

*"Qırxqız yaylağı"mız,*
*Cıdır düzümüz ağlar.*
*Şuşa bülbül haraylar,*
*Şuşa Qədir soraqlar....*
*Şuşa gözləyir bizi!*

***

*"Səkili", "Alçalı", "Damcı", "Palçıqlı",*
*"Novlu", "Dərəbulaq", "Şırşır", "Çarıqlı".*
*Sıx meşə içində lap yaraşıqlı,*
*Gur İsa bulağı yadıma düşdü.*

Bu əsərlərdə həsrətlə yanaşı, ümid də var. Hər kəs Şuşanın düşmən caynağından azad olunacağına inanır:

*Oğulların nərə çəkər!*
*Düşmənini qırar, tökər!*
*Yağıların bağrın sökər!*
*Azad olar lap tez Şuşam!*
*Ulu yurdum, ulu Şuşam!*

***

*Gələcək tez bir zaman,*
*Çəkiləcək çən, duman.*
*Sancılacaq Şuşada*
*Zəfər bayrağım mənim,*
*Ay Qarabağım mənim!*

***

*Vətən məhəbbəti, qoy bilsin hamı,*
*Ürəkdə sönməyən bir gur ocaqdır,*
*Bütün yurdumuzun zəfər bayramı,*
*Şuşadan, Şuşadan başlayacaqdır.*

Həqiqətən də, Azərbaycan tarixinə 8 noyabr Zəfər Günü Şuşanın adı ilə yazıldı. Müzəffər Ordunun Ali Baş Komandanı Prezident İlham Əliyevin 2020-ci ilin 8 noyabrında böyük sevinc, qürur hissi ilə söylədiyi "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!" xəbəri 28 illik Şuşa həsrətinə son qoydu. Bu bənzərsiz hiss və duyğular milli qürurumuzun poeziyamızda təntənəsinə çevrildi:

*Anam Şuşa, nəhayət, ayrılıq sona çatdı,*
*Gözlərindən öpməyə-görüşməyə gəlmişəm!*
*"Dəmir yumruq"sahibi Ali Baş Komandanla,*
*Qəhrəmanlıq tarixin yazan ər oğullarla,*
*Canını səndən ötrü verən Şəhidlərinlə,*
*Düşmənin qabağında əyilməz Qazilərlə,*
*Duyğumu, sevincimi bölüşməyə gəlmişəm!*

44 günlük Qarabağ müharibəsində dövlətlə xalqımızın birliyi, qəhrəman oğullarımızın şücaəti, vətənpərvərliyi yeni yaranan ədəbi əsərlərin leytmotivinə çevrildi. Əlbəttə, Şuşanın azadlığına gedən yol Qarabağımızın dilbər guşələrindən: Tərtər, Xankəndi, Ağdam, Füzuli, Ağdərə, Kəlbəcər, Cəbrayıl, Qubadlı, Zəngilan, Laçın, Xocalı, Xocavənddən keçir.

Erməni vandalizmi tərəfindən məhv edilmiş, talanmış Qarabağın, o cümlədən Şuşanın tarixi abidələri bu gün dövlətimiz tərəfindən bərpa olunmaqdadır. Artıq Şuşada Yuxarı Gövhər ağa məscidindən azan səsləri eşidilir, hər il Cıdır düzündə "Xarıbülbül" musiqi festivalı keçirilir, yurdlarından didərgin düşmüş insanlar öz doğma elinə, obasına qayıdır. İndi söz ustadlarımız "Şuşaya Qayıdış dövrü" ilə bağlı ədəbiyyatımıza öz yeni töhfələrini verirlər ki, bu, artıq Şuşamızın yeni həyatının bədii inikası ilə bağlıdır.

**Bibixanım İBADOVA,**
**ARTİ-nin şöbə müdiri,**
**pedaqogika üzrə fəlsəfə doktoru,**
**dosent, Əməkdar müəllim**




**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunda orta məktəblərin 6-11-ci sinif şagirdləri üçün institut tərəfindən hazırlanmış coğrafiya atlasının təqdimatı keçirilib. Təqdimatda orta məktəblərin coğrafiya müəllimləri, Təhsil İnstitutunun əməkdaşları və digər qonaqlar iştirak ediblər.**

# Yeni coğrafiya atlası təqdim olunub

Qeyd edilib ki, yeni atlas yüksək keyfiyyətlə işlənib, onun elektron bazası yenilənib. Son dövrlərdə Azərbaycanın siyasi-inzibati xəritəsində və iqtisadi inkişafında baş verən dəyişikliklər, iqtisadi rayonların sərhədlərinin yenidən müəyyənləşdirilməsi atlasdakı xəritələrdə öz əksini tapıb.

Atlasın redaksiya heyəti və rəyçiləri də təzələnib. Nəşr edilmiş xəritələr toplusunun üzərində Coğrafiya İnstitutunun baş direktoru professor Zakir Eminov, 175 nömrəli tam orta məktəbin coğrafiya müəllimi Aygün Əliyeva, Təhsil İnstitutunun böyük elmi işçisi Təranə İsmayılova, BDU-nun kafedra müdiri Saleh Nağıyev, Coğrafiya İnstitutunun şöbə müdiri Nəriman Paşayev işləmişlər. Rəyçilər BDU-nun coğrafiya fakültəsinin dekanı Məqsəd Qocamanov, Coğrafiya İnstitutunun şöbə müdiri Solmaz Rzayeva və İlahə Kərimovadır.

Təqdimatda institutun baş direktoru professor Zakir Eminov bildirib ki, bu gün dünyanın əksər regionlarında, o cümlədən Azərbaycanda baş verən sosial - demoqrafik, ictimai-siyasi və iqtisadi proseslərin xəritələrdə əks etdirilməsi önəmlidir. Siyasi həmçinin siyasi-inzibati xəritələrdə olan dəyişikliklər, coğrafi adların yenilənməsi və iqtisadi inkişafdakı irəliləyişlərin bu materiallarda əks olunması tədris prosesinin daha effektiv aparılmasına kömək edəcək. Atlas həm məzmunu, həm də texniki keyfiyyəti ilə fərqlənir. Bundan əlavə, atlasın istifadəsi daha rahat hala gətirilib. Hesab edirik ki, atlas müəllimlər və şagirdlərin ondan istifadəsini asanlaşdıracaq, ali təhsil müəssisələrinin bakalavr və magistratura səviyyələrində təhsil alan tələbələr üçün faydalı bilik mənbəyi olacaq.

Tədbir diskussiya şəklində başa çatıb.

**Şakir CƏFƏROV**

**"AZƏRBAYCAN MÜƏLLİMİ"**

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1073/2, Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan nəşriyyatı" MMC, 9-cu mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 38625 **Sifariş** 2110
**Məsul növbətçi:** S.Kərimova



# Etibarsız sayılır



**Gəncə şəhər** 39 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Məhərrəmov Zaur İlqar oğluna verilmiş E-477267 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 4 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Rüstəmova Nigar Elnur qızına verilmiş E-343101 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Aşağı Quşçu kənd tam orta məktəbi 2023-cü ildə bitirmiş Tağıyev Nihad Şahsuvar oğluna verilmiş E-624657 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Aralıq kənd tam orta məktəbi 2006-cı ildə bitirmiş Babayeva Xanım Abdulla qızına verilmiş 243653 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ucar rayon** Qaracallı kənd 2 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Maqsudov Asif Ağaşirin oğluna verilmiş B-209565 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 39 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Baxışova Mənsurə Rəhim qızına verilmiş A-650814 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** Axısxa kənd tam orta məktəbi 2002-ci ildə bitirmiş Bürhənova Minayə İlham qızına verilmiş A-628398 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 9 nömrəli tam orta məktəbi 2021-ci ildə bitirmiş Kərimov Gülağa Rövşən oğluna verilmiş E-404722 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** Xırmandalı kənd 1 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Hüseynova Laləzar İlham qızına verilmiş C-704334 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2022-ci ildə Yusifli Nicat Zaur oğluna verilmiş C-138538 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** 5 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Hidayətzadə Nərmin İsrail qızına verilmiş B-721649 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**80 nömrəli orta texniki peşə məktəbi** tərəfindən 1990-cı ildə Paşayeva Sevinc Əhliman qızına verilmiş B-492658 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 145 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Əfəndiyeva Regina Rəşidovnaya verilmiş B-190754 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Dövlət Universiteti** tərəfindən 2014-cü ildə Əhmədov Rəşad İbrahim oğluna verilmiş A-043444 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 154 nömrəli tam orta məktəbi 2021-ci ildə bitirmiş Seyidov Tofiq Həsən oğluna verilmiş E-268239 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər Texniki-Humanitar liseyin** IX sinfini 2024-cü ildə bitirmiş Mustafayev Yusif Məhəmməd oğluna verilmiş C-901524 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Xanqaraqoyunlu kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Mustafayeva Ləman Ağamirzə qızına verilmiş B-058126 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş şəhər** 8 nömrəli tam orta məktəbin IX sinfini 1996-cı ildə bitirmiş Səfərova Günel Taryel qızına verilmiş 068006 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Culfa rayon** Bənəniyar kənd tam orta məktəbi 1991-ci ildə bitirmiş Əliyeva Kəmalə Kamal qızına verilmiş 002302 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Nizami kənd tam orta məktəbin IX sinfini eksternat qaydada 2014-cü ildə bitirmiş Capa (Veyisova) Jalə Fuad qızına verilmiş A-410733 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 39 nömrəli tam orta məktəbi 1995-ci ildə bitirmiş Çərkəzova Səadət Ramiz qızına verilmiş 102738 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Tatlı kənd tam orta məktəbi 2007-ci ildə bitirmiş Hüseynova Laçın Zülfüqar qızına verilmiş A-408331 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Qaçaq Kərəm kənd tam orta məktəbi 2005-ci ildə bitirmiş Hüseynova Şəfəq Nəsimi qızına verilmiş B-144965 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Qarayazı qəsəbə tam orta məktəbi 2005-ci ildə bitirmiş Mustafayeva Amalya İsa qızına verilmiş B-145355 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 18 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Nəcəfov Nihad Elmar oğluna verilmiş E-133669 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci** tərəfindən 2022-ci ildə Verdiyev Elçin Elşən oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Sosial İqtisadi Kolleci** tərəfindən 2015-ci ildə Əhmədov Kamran Dəmir oğluna verilmiş AA-057881 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Qubadlı rayon** İ.Qayıbov adına Saray kənd tam orta məktəbin IX sinfini 2005-ci ildə bitirmiş Cabbarov Bəhruz Hüseyn oğluna verilmiş A-162599 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan şəhər** 3 nömrəli tam orta məktəbi 1995-ci ildə bitirmiş Əskərova Elnarə İslam qızına verilmiş A-0579 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qəbələ şəhər** 4 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Bəşirova (Həsənova) Nigar Xamis qızına verilmiş B-210808 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər** 10 nömrəli tam orta məktəbi 2021-ci ildə bitirmiş Məhərrəmzadə Rəvan Rifai oğluna verilmiş A-417268 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Dövlət Universiteti** tərəfindən 2020-ci ildə Fərzəlizadə Əvəz Yalçın oğluna verilmiş C-086527 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** məktəb-lisey kompleksini 2014-cü ildə bitirmiş Vəliyeva Ağabacı Həmzə qızına verilmiş A-293794 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 171 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Kərimova Firuzə Əbdülrəhman qızına verilmiş B-132504 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Tibb Universiteti** tərəfindən 2000-ci ildə Hüseynova Ülviyyə Nağı qızına verilmiş AB-I-080673 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayon** Xocavənd kənd 1 nömrəli tam orta məktəbi 2024-cü ildə bitirmiş Nəcəfli İlkin Rüfət oğluna verilmiş E-711421 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kəngərli rayon** Qarabağlar kənd 2 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Məmmədov Beytulla Həsənqulu oğluna verilmiş A-504204 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 307 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Zərbalıyev Coşqun Rahim oğluna verilmiş E-552131 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Köhnə Alvadı kənd tam orta məktəbi 2006-cı ildə bitirmiş Allahverdiyeva (İbrahimova) Aytən Arif qızına verilmiş B-298939 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Köhnə Alvadı kənd tam orta məktəbi 2007-ci ildə bitirmiş Atakişiyeva (İbrahimova) Nuranə Arif qızına verilmiş B-442408 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 124 nömrəli tam orta məktəbin IX sinfini 2024-cü ildə bitirmiş İslamov Füzuli Şəhriyar oğluna verilmiş C-875282 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**14 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 1999-cu ildə Xibabayeva İnqa Subət qızına verilmiş AB-002538 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 74 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Sadıqov Sadıq Kamil oğluna verilmiş E-193926 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Şiyəkəran kənd 1 nömrəli tam orta məktəbi 1988-ci ildə bitirmiş Əliyeva (Məmmədova) Sənubər Allahverən qızına verilmiş AK-373247 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Şiyəkəran kənd 1 nömrəli tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Mirzəyev Surac Etiraf oğluna verilmiş A-490697 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** 1 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Hüseynzadə Səbinə Etibar qızına verilmiş E-333961 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zərdab rayon** Pərvanlı kənd tam orta məktəbi 1999-cu ildə bitirmiş Məmmədova Xeyransa Namizəd qızına verilmiş A-355574 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə Dövlət Universiteti** tərəfindən 2006-cı ildə Qasımov Ruslan Zamil oğluna verilmiş B-076333 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** 149 nömrəli köçkün tam orta məktəbi 2007-ci ildə bitirmiş Əsgərova Nigar Əli qızına verilmiş B-426340 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 261 nömrəli məktəb-liseyi 1992-ci ildə bitirmiş Zeynalova Məryam Şahin qızına verilmiş A-202995 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 9 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Cəfərov Yaqub Vüqar oğluna verilmiş E-226456 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 4 nömrəli tam orta məktəbin IX sinfini 1992-ci ildə bitirmiş Məmmədova Vəfa Uğurəli qızına verilmiş AO-038844 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Dəllər Cırdaxan kənd tam orta məktəbi 1991-ci ildə bitirmiş Məmmədova Nətavan Allahverdi qızına verilmiş A-080807 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 271 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Mehrəliyeva Elvira Xankişi qızına verilmiş A-016857 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 183 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Əhmədova Günəş Səyyaf qızına verilmiş B-127477 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Dəlimmədli şəhər tam orta məktəbin IX sinfini 2023-cü ildə bitirmiş Quliyeva Gülcan Rafiq qızına verilmiş C-804822 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad şəhər** 1 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Həmidova Samirə Ələmdar qızına verilmiş B-152606 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.